24 dekabr 2021 №95 (1872) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident İlham Əliyevə yubiley təbrikləri

Bu gün Azərbaycanın dövlətçilik tarixinə adını müzəffər Ali Baş Komandan kimi yazdıran Prezident İlham Əliyevin 60 yaşı tamam olur.

Əlamətdar yubileyi münasibətilə müxtəlif ölkələrdən – dövlət və hökumət başçıları, digər rəsmi şəxsləri beynəlxalq təşkilatların, elm, təhsil ocaqları və mərkəzlərinin rəhbərləri Prezidentə təbrik məktubları göndərirlər. Təbrik məktublarında Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inkişaf edərək beynəlxalq miqyasda öz mənafelərini qətiyyətlə müdafiə edən güclü və nüfuzlu dövlətə çevrildiyi vurğulanır.

Çin Xalq Respublikasının Sədri Si Cinpin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Belarus Prezidenti Aleksandr Lukaşenko, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstanın birinci Prezidenti – Elbası Nursultan Nazarbayev, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Serbiya Prezidenti Aleksandr Vuçiç, İordaniya Kralı II Abdullah, Xorvatiya Prezidenti Zoran Milanoviç, Moldova Prezidenti Maya Sandu, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, habelə Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, TÜRKSOY-un Baş katibi Düsen Kaseinov və başqaları dövlət başçısına yubileyi münasibətilə xoş diləklərini çatdırıblar.

TÜRKSOY-un Baş katibinin təbrikində deyilir:

"Zati-alinizin yürütdüyü uzaqgörən və müdrik siyasət nəticəsində müstəqil Azərbaycan Respublikası siyasi, iqtisadi və mədəni sahələrdə yüksək nailiyyətlər əldə edərək beynəlxalq aləmdə nüfuzunu artırmış və regionda sülhün, tərəqqinin və əmin-amanlığın bərqərar olmasını təmin etmişdir.

Əminəm ki, Zati-alinizin apardığı təmkinli və ardıcıl fəaliyyət sayəsində azad edilmiş əzəli Azərbaycan torpaqlarında vaxtilə dağıdılmış, məhv edilmiş türk mədəni və tarixi irsi, mədəniyyət və incəsənət ocaqları çox qısa müddətdə bərpa edilərək Azərbaycan xalqının istifadəsinə veriləcək və Qarabağ torpağı yeni dahilər yetişdirib dünya mədəniyyətinə bəxş etdəcəkdir.

Fürsətdən istifadə edərək, TÜRKSOY-a daim göstərdiyiniz diqqət və qayğıya görə Zati-alinizə minnətdarlığımı bildirir, bu əlamətdar gündə Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram".

## Tahir Salahovun Avropada ilk böyük beynəlxalq sərgisi

Moskvadakı Dövlət Tretyakov Qalereyası CSAR Mərkəzi, Ca'-Foscari Venesiya Universiteti, Dövlət Şərq Muzeyi (Moskva) və Heydər Əliyev Fondu ilə birlikdə Azərbaycanın dünya şöhrətli rəssamı Tahir Salahovun sərgisini təqdim edəcək.

səh. 2

## Leyla Bədirbəylinin yubileyinə həsr olunmuş xatirə gecəsi

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli teatr və kino aktrisası, Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Bədirbəylinin (1920-1999) 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirildi.

Teatrın foyesində Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi əsasında aktrisanın sənət yolunu əks etdirən fotolardan ibarət sərgi təşkil olunmuşdu.

səh. 3



## Bakıda braziliyalı rəssamın sərgisi

Dekabrın 22-də Heydər Əliyev Mərkəzində təsviri incəsənətin "küçə sənəti" (street art) üslubunda işləyən braziliyalı rəssam Nina Pandolfonun "Minnətdarlıq" (Gratitude) adlı fərdi sərgisi açılıb.

Qeyd edilib ki, "Minnətdarlıq" sərgisi hər kəsin minnətdar olmasını ehtiva edən bir sərgidir, daha doğrusu, həyat tərzi anlamındadır. Minnətdarlıq bizi daha yüksək səviyyəyə ucaldan ülvi bir hissdir.

səh. 5

# Bu gün o gündür...

## Azərbaycana tarixinin ən böyük Zəfərini bəxş edən Liderin günü

Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika quran ölkədir. Biz də müasir dövlətimizi bu bünövrə üzərində qururuq. Mən ölkəmizi müasir, demokratik, güclü sosial siyasətə malik, iqtisadi cəhətdən inkişaf etmiş və regionda güclü mövqe tutan ölkə kimi görürəm. Mənim dediklərimin əksəriyyətinə artıq nail olunub... Bizim bu gün həll etdiyimiz problemlər gələcəyə yönəlib... Əgər imkan olsaydı, mən irəli, deyək ki, heç olmasa 10 il irəli gedərdim. Baxardım ki, düşündüklərim baş tutub, yoxsa yox və nə dərəcədə alınıb?



Prezident İlham Əliyev bu sözləri on il əvvəl "Rossiya" telekanalında M.Qusmanın "Hakimiyyət formulu" müəllif proqramına müsahibəsi zamanı demişdi. Həmin proqram Azərbaycan Prezidentinin 50 illik yubileyi ərəfəsində efirə getmişdi.

On il keçib. Bu gün Prezident İlham Əliyevin 60 yaşı tamam olur. Hər bir yetkin insan yaşının üstünə yaş gəldikdə dönüb arxaya baxır, yaşadığı həyata, arxada qoyduğu dövrə nəzər salıb ona özlüyündə qiymət verir. Eyni zamanda gələcəyi düşünür. Dövlət rəhbərinin təvəllüd günü isə həm də cəmiyyətin onun fəaliyyətinə, əməllərinə qiymət verməsi üçün bir vəsilədir. İlham Əliyevin həyatının 27 ili dövlət işində, ictimai-siyasi fəaliyyətdə, son 18 ili isə dövlətə rəhbərlikdə keçib...

...2003-cü ildən Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Ulu öndər Heydər Əliyevin dövlətçilik kursunu layiqincə davam etdirən İlham Əliyevin rəhbərliyi ilə bu illər ərzində ölkəmiz dinamik inkişaf dövrünü yaşayıb. Bu tərəqqi mədəniyyət sahəsində də yeni layihələrin, dövlət proqramlarının həyata keçirilməsi, müasir maddi-texniki bazanın, infrastrukturun yaradılması, yaradıcı fəaliyyətin təşviq olunmasında özünü göstərib. Regionların sosial-iqtisadi inkişafı yerlərdə mədəni həyata da mühüm zəmin yaradıb. Paytaxtda və regionlarda mədəniyyət obyektlərinin təmir-bərpası, ölkənin müasir inkişafını təcəssüm etdirən yeni mədəniyyət ocaqlarının yaradılması bu sahəyə göstərilən diqqətin real təcəssümüdür.

İlham Əliyevin prezidentlik fəaliyyəti ilk illərdən başlayaraq tarixi-mədəni irsə bağlılıqla bərabər, modernləşmə, qabaqcıl dünya təcrübəsinin tətbiqi ilə müşayiət olunub. O, mədəniyyətin xalqın taleyində əhəmiyyətini hər zaman yüksək qiymətləndirib: "Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir... Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu artıq bütün dünya bilir. Azərbaycan cəmiyyəti həmişə mədəniyyətə çox bağlı olub və bu gün müstəqil Azərbaycan dövləti çox güclü əsaslar – tarixi, mədəni əsaslar, mənəvi dəyərlər üzərində qurulub...".

Bu illərdə Azərbaycan musiqi sənəti dünya səhnələrini fəth edib, ifaçılarımız yüzlərlə sənət yarışmasında uğur qazanıb. Azərbaycanın zəngin mədəni irsi ölkəmizdən çox-çox uzaqlarda uğurla təqdim və təbliğ olunub.

...Amma... Bu illər ərzində Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin (siyasi, iqtisadi, mədəni, idman və s.) bir natamamlığı vardı. Ölkəmizin ərazisinin beşdəbirinin işğal altında olması onların üzərinə də kölgəsini salırdı. Əldə olunan hər bir uğurun sanki beşdəbir kəsiri vardı. Çünki onların hər birində əlimiz yetməyən Vətən torpaqlarının da payı olmalı idi, amma yox idi. Bunu fərd kimi hər birimiz, xalq, cəmiyyət olaraq hamımız dərk edirdik. Hər zaman dilimizə gətirməsək də... "Vətən bağı al-əlvandır" söylənəndə xarıbülbülün yeri görünür, "Qarabağ şikəstəsi" səslənəndə qəlbimizdəki boşluğu, o beşdəbirin kəm olduğunu hiss edirdik...

2020-ci ilin 27 sentyabrınadək... Həmin gün İlham Əliyev Azərbaycan üçün ən taleyüklü bir qərarı verdi və 44 gün içində uzaqgörən siyasətçi, mahir diplomat, qətiyyətli dövlət başçısı və Ali Baş Komandan olaraq illərdir qurduğu, dövlətin bütün imkanlarını güc və qüdrətinə səfərbər etdiyi Silahlı Qüvvələrlə birlikdə Azərbaycana tarixinin ən böyük Zəfərini bəxş etdi.

Azərbaycan xalqı zədələnmiş milli qüruru dirçəldəcəyi, Vətənin həsrətində olduğumuz o beşdəbirin göylərində dalğalanacaq bayrağımıza baxmaq üçün – başımızı uca, alnımızı açıq edəcək o Zəfərin illərdi intizarında idi.

Bu Zəfər təkcə ölkəmizin ərazi bütövlüyünü, Azərbaycanın beynəlxalq hüquqla tanınan sərhədlərinin bütünlüyünü təmin etmədi, bizi millət və toplum olaraq illərdi içimizdə çəkdiyimiz natamamlıqdan da qurtardı. Azərbaycan tarixinin ən böyük sınağından çıxaraq otuz ilin kəsirini tamamladı, böyüdü. Yalnız ərazi bütövlüyünü bərpa etməklə deyil, həm də dövlət, xalq olaraq güc və qüdrətini dünyaya göstərərək. Mədəniyyətimizin illərlə natamam olan mənzərəsi, rəngi, havası, səsi də tamamlandı. Artıq "Qarabağ şikəstəsi" Qarabağda havalanır, "Şuşanın dağları" Şuşada səslənir...

davamı səh. 4-də

## "Həyata sevgi ilə..."

Dekabrın 22-də Azərbaycan Milli İncəsənət Muzeyində "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisinin açılışı keçirildi. SSRİ Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinə həsr olunmuş sərgidə Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Musiqi Mədəniyyəti Dövlət Muzeyinin kolleksiyasından əsərlər nümayiş olunur.



Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev tədbir iştirakçılarını salamlayaraq bildirdi ki, muzeyin kollektivi Mikayıl Abdullayevin 100 illik yubileyinə böyük məsuliyyət və sevgi ilə hazırlaşıb. Diqqətə çatdırıldı ki, sərgidə görkəmli rəssamın 190-a yaxın rəngkarlıq və qrafik əsəri nümayiş olunur. Vernisajda "Axşam", "Sevinc", "Azərbaycan tarlalarında", "Səadət qurucuları", "Mingəçevir işıqları", "Hindistan anası", "Çəltikçi qızlar" tematik tabloları, "C.Cabbarlı", "Y.Məmmədəliyev", "M.P.Vaqif", "M.F.Axundzadə", "Yazıçı H.Seyidbəyli" və "Şair S.Rüstəm" portretləri yer alıb. Ekspozisiyada həmçinin Əməkdar rəssam, heykəltəraş Zeynalabdin İsgəndərovun müəllifi olduğu, Mikayıl Abdullayevin obrazı canlandırılan heykəltəraşlıq kompozisiyası da sərgilənir.

Mədəniyyət naziri Anar Kərimov mərasimdə çıxış edərək Mikayıl Abdullayevin Azərbaycan rəssamlıq sənətinin inkişafında xidmətlərindən söz açdı. Qeyd etdi ki, Azərbaycan mədəniyyəti tarixinə əbədi olaraq öz adlarını qızıl hərflərlə yazmış sənətkarlardan biri də Mikayıl Abdullayevdir. O, bir çox beynəlxalq mükafatların laureatı, SSRİ Rəssamlıq Akademiyasının akademiki, SSRİ Xalq rəssamı olub, ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycanın "İstiqlal" ordeninə layiq görülüb.

davamı səh. 3-də

## Nizaminin Şirini: "Mən qara gözlü türkəm"

### Akademik Rafael Hüseynov Viktoriya və Albert Muzeyinə məktub ünvanlayıb

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin baş direktoru, akademik Rafael Hüseynov Londondakı Viktoriya və Albert Muzeyinin saytında Nizami Gəncəvinin İran şairi kimi, onun "Xosrov və Şirin" poemasındakı Şirin obrazının isə erməni olaraq təqdim edilməsi ilə bağlı muzeyin direktoru Tristram Hanta, kolleksiyalar üzrə direktor Antonia Boströma və muzeyin görüşlər, kommersiya məsələləri, rəqəmsallaşdırma üzrə direktoru Sofi Brendelə məktub ünvanlayıb.

Bu barədə Ədəbiyyat Muzeyindən məlumat verilib. Məktubda Rafael Hüseynov Londondakı bu məşhur muzeydə dəfələrlə olduğunu diqqətə çatdıraraq yazır ki, mən peşəkar şərqşünas və muzey işçisi olduğumdan ekspozisiyalarda tarixi çəkisi və mənası olan sənəd və eksponatların düzgün, təhrifsiz təqdiminə həmişə son dərəcə diqqətli və ehtiyatla yanaşıram.

Qeyd olunur ki, muzeyin saytında XII əsr Azərbaycan şairi Nizami Gəncəvinin İran şairi kimi, onun "Xosrov və Şirin" poemasındakı Şirin obrazının erməni olaraq təqdim edilməsi tarixi və elmi baxımdan doğru deyil və narazılığa səbəb olan da məhz bu incə məqamlardır.

Vurğulanır ki, Nizami Gəncəvi Azərbaycan şairidir, 1141-ci ildə Azərbaycanın şəhəri Gəncədə doğulub, ömrü boyu bu şəhərdə yaşayıb, bütün əsərlərini Gəncədə yaradıb, 1209-cu ildə Gəncədə vəfat edib, bu gün də onun Azərbaycan Respublikasının ikinci böyük şəhəri Gəncədəki mavzoleyi bütün xalqın ən uca tutduğu ziyarət yerlərindəndir. Azərbaycan şairinin heykəlləri bu gün İtaliyada, Misirdə, Rusiyada, Lüksemburqda və digər ölkələrdə də yüksəlməkdədir.

davamı səh. 2-də

### Şəhid və qazi ailələri üçün bayram tədbiri



səh. 2

### "Uşaqlar vokal sənətinə ciddi yanaşırlarsa, 17 yaşdan sonra oxumağa başlamalıdırlar"

səh. 5



### Seyfəddin Dağlının 100 illiyi qeyd olundu

səh. 6

## Tahir Salahovun Avropada ilk böyük beynəlxalq sərgisi

Moskvadakı Dövlət Tretyakov Qalereyası CSAR Mərkəzi, Ca'-Foscari Venesiya Universiteti, Dövlət Şərq Muzeyi (Moskva) və Heydər Əliyev Fondu ilə birlikdə Azərbaycanın dünya şöhrətli rəssamı Tahir Salahovun sərgisini təqdim edəcək.

Sərgidə Tretyakov Qalereyasının, Moskva Dövlət Şərq Muzeyi və Azərbaycan muzeylərinin kolleksiyalarından rəssamın 50 əsəri təqdim olunacaq.

Qalereyanın yaydığı məlumatda vurğulanır ki, bu, Tahir Salahovun Avropada ilk böyük beynəlxalq sərgisi olacaq.

Tahir Salahovun əsərlərindən ibarət sərginin 2022-ci il aprel-sentyabr aylarında keçirilməsi nəzərdə tutulub. "Bu, 1962-ci ildə Venesiya Biennalesində iştirak edən üç "sərt üslublu" sovet rəssamına həsr olunmuş layihənin davamı olacaq", – deyə məlumatda vurğulanır.

## "Nizami poeziyasının musiqi səltənəti"

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində "Nizami poeziyasının musiqi səltənəti" adlı tədbir-konserti keçirilib.



Tədbirdə mütəfəkkir şairin həyat və yaradıcılığına nəzər salınıb, əsərləri haqqında məlumat verilib, Şərq intibahının yüksək zirvəsi olan Nizaminin idealları, humanist fəlsəfəsi barədə söhbət açılıb.

"Nizamidə musiqi və musiqidə Nizami" məzmunda məruzə dinlənilib. Məruzədə şairin yaradıcılığında təsvir olunan musiqi alətləri haqqında videoslayd vasitəsilə məlumat verilib. Nizami irsinin bəstəkar yaradıcılığında təcəssümü mövzusunda şairin əsərləri əsasında yazılan, musiqi mədəniyyətimizi zənginləşdirən əsərlərdən danışılıb.

Tədbirdə məktəbin şagirdlərinin ifasında müxtəlif əsərlər səsləndirilib, rəqs nömrələri təqdim olunub.

Rəsm şöbəsinin müəllimləri Nigar Şıxəliyeva və Əli Ağadadaşovun şagirdlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.

## "Əbədiyyət ünvanı – şəhidlik"

Azərbaycan İstiqlal Muzeyində "Əbədiyyət ünvanı - şəhidlik" adlı tədbir-sərgi təşkil olunub. Sərgi 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" layihəsi üzrə birinci mərhələnin sonuncu tədbiridir.



Tədbirdə əşyaları nümayiş olunan şəhidlərin ailə üzvləri çıxış edərək 44 gün davam edən hərbi əməliyyatlar zamanı rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlıqlarından söz açıblar. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı müzəffər Ali Baş Komandan İlham Əliyevin "Dəmir yumruğ"u ətrafında birləşərək xalqın dəstəyindən güc alan Ordumuz 44 gün ərzində 30 illik torpaq həsrətinə son qoyub. Bildirilib ki, Vətən müharibəsində əldə olunan möhtəşəm Zəfərimiz tarix boyu qürur mənbəyimiz olaraq qalacaq.

Sonda tədbir iştirakçıları şəhidlər – polkovnik-leytenant Sədi Musayev, baş leytenantlar Elçin Əzizov, Muxtar Qasımlı, gizirlər Vüsal Rüstəmov, Elnur İbrahimov və əsgər Murad Məmmədovun fotoşəkil və şəxsi əşyaları ilə tanış olublar.

Tədbirdə şəhid ailələri, Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları iştirak ediblər.

Sərgi dekabrın 28-dək davam edəcək.

# Bosniya və Herseqovinadan Azərbaycana dəstək

### "Qarabağın döyüş meydanından inkişaf bölgəsinə çevrilməsi çox sevindiricidir"

Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə və Vətən müharibəsi dövründə ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirir, bunu dostluq və tərəfdaşlıq əlaqələrinin mühüm göstəricisi kimi dəyərləndiririk.



Prezident İlham Əliyev bu fikri dekabrın 23-də Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç ilə görüşdə vurğulayıb.

Qonaq Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçin salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident dost ölkənin rəhbərinin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Şefik Caferoviçə çatdırmağı xahiş edib.

İlham Əliyev bu yaxınlarda Şefik Caferoviçlə görüşünü məmnunluqla xatırladaraq, Azərbaycanın da Bosniya və Herseqovinanı dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən 30 ilə yaxın davam edən işğal dövründə şəhərlərin, kəndlərin, tarixi və dini abidələrin darmadağın edildiyini bildirərək indi ölkəmizin həmin ərazilərdə həyata keçirdiyi yenidənqurma və bərpa işlərindən danışıb.

Bisera Turkoviç ölkəmizin əldə etdiyi böyük nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb və inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu qeyd edib.

***

Qarabağın döyüş meydanından inkişaf bölgəsinə çevrilməsi çox sevindiricidir. Bosniya və Herseqovina Azərbaycanın ərazi bütövlüyünə dair qətnamə qəbul edib. Azərbaycan da Bosniya və Herseqovinanın suverenliyini tanıyır.

Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla keçirilən görüşdən sonra təşkil olunan brifinqdə söyləyib.

Bosniya və Herseqovina rəhbərliyinin Azərbaycanda səfirliyin açılması ilə bağlı qərar verdiyini deyən nazir bunun ölkə vətəndaşlarının Azərbaycana turist kimi səfər etmələri üçün yaxşı imkan yaradacağını deyib.

Bisera Turkoviç COVİD-19 pandemiyası ilə əlaqədar Azərbaycanın ölkəsinə göstərdiyi dəstəyə görə də minnətdarlığını bildirib.

# Bəstəkarlarımızın musiqisini xaricdə tanıtmaq

### "Azərbaycan musiqi inciləri" kitabı nəşr olunub

Diaspora Dəstək Fondunun maliyyə yardımı ilə "Azərbaycan musiqi inciləri" – "Music Pearls of Azerbaijan" adlı musiqi (not) kitabı nəşr olunub.

Nəşrin məqsədi bəstəkarlarımızın musiqisini xaricdə tanıtmaq, onların əsərlərini digər ölkə ifaçılarının repertuarına daxil edərək təbliğinə nail olmaqdır. Not kitabında piano, nəfəsli alətlər və vokal ifa üçün nəzərdə tutulmuş əsərlər yer alıb.

Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Asəf Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Ələsgərov, Tofiq Quliyev, Vasif Adıgözəlov və Aqşın Əlizadə kimi bəstəkarların əsərlərinin toplandığı kitabda hər müəllif, eyni zamanda Azərbaycan musiqi mədəniyyəti və bəstəkarlıq məktəbi haqqında ingilis dilində məlumatlar verilib.

Layihənin rəhbəri Türkiyədə yaşayan həmvətənimiz, musiqiçi Vüqar Qurbanov, kitabın redaktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Aybəniz Növrəsli, layihənin bədii rəhbəri sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətovdur.

"Azərbaycan musiqi inciləri" Azərbaycan Diasporuna Dəstək Fondunun vasitəçiliyi ilə dünyanın bir çox ölkələrində fəaliyyət göstərən musiqi təmayüllü təhsil müəssisələrinə və kitabxanalara hədiyyə ediləcək.

# Nizaminin Şirini: "Mən qara gözlü türkəm"

### Akademik Rafael Hüseynov Viktoriya və Albert Muzeyinə məktub ünvanlayıb

*əvvəli səh. 1-də*

"Nizami Gəncəvi Azərbaycan xalqı üçün, sadəcə, görkəmli şair deyil. Nizami Azərbaycan xalqının başlıca rəmzlərindən biridir, bu xalqın milli kimliyinin, istedadının, yaradıcı gücünün vacib göstəricilərindəndir. Ona görə də Azərbaycan xalqı üçün son dərəcə əziz və qiymətli olan belə bir əbədiyaşar və dünyada məşhur övladının başqa bir xalqın nümayəndəsi kimi qələmə verilməsi, gəncəli, azərbaycanlı olduğu halda onun iranlı kimi təqdim edilməsi Azərbaycan Respublikasında əhalinin ən müxtəlif təbəqələri arasında təəccüb və narazılıq oyatmışdır. Azərbaycan insanlarının Nizami Gəncəvi ilə əlaqədar baş vermiş bu təhrifə belə həssas münasibət göstərməsi təsadüfi deyil", – deyə Rafael Hüseynov yazır.

Akademik qeyd edir ki, tarix boyu Azərbaycanın yalnız torpaqlarına və sərvətlərinə deyil, həm də böyük şəxsiyyətlərinə, mədəni irsinə, abidələrinə qarşı da təcavüz, qəsb siyasəti yürüdülüb. Azərbaycanın 20 faiz ərazisi 30 ilə yaxın müddətdə işğal altında idi. 2020-ci ilin noyabrında Azərbaycan 44 günlük müharibədən sonra, nəhayət ki, bütün zəbt olunmuş torpaqlarını azad edib. Uzunmüddətli işğal səbəbindən indi öz ərazilərinin hər qarışına, hər bir milli sərvətinə son dərəcə həssas münasibət hər bir azərbaycanlı üçün ən ali duyğudur: "Gəncəli Nizami İran, fars şairi kimi təqdim ediləndə Azərbaycan xalqı bunu yalnız öz doğma şairinə qarşı deyil, həm də Vətənin ayrılmaz parçası olan Gəncəyə qarşı yolverilməz yanaşma, ölkənin ərazi bütövlüyünə sayğısız münasibət kimi qavrayır... Nizami Gəncəvi Azərbaycan şairidir, gəncəlidir, milliyyətcə Azərbaycan türküdür və bütün bunları hər kəsdən əvvəl özü "Xəmsə"sində açıq-aşkar bəyan edir. Lakin Nizami Orta əsrlərdə Mərkəzi Asiyada mövcud olmuş ədəbi ənənəyə uyğun olaraq əsərlərini o zamanın ortaq poeziya dili olan farscada yazmışdır. Üç dildə - ana dili olan Azərbaycan türkcəsində, farsca və ərəbcə yazmaq Orta əsr Azərbaycan ziyalısı üçün səciyyəvi olmuşdur".



Məktubda bildirilir ki, bu gün də ABŞ-da ingiliscə yazan çoxlu ərəb və pakistanlı yazıçı və şairlər var, yaxud Almaniyada yaşayan, alman dilində gözəl poeziya və nəsr nümunələri doğuran onlarla türk ədibi fəaliyyətdədir. Hindistan vətəndaşı olan, ana dili kimi mənimsədiyi ingiliscədə gözəl bədii əsərlər yaradan hindli qələm sahiblərini, yaxud əlcəzairli fransızdilli ərəb yazıçı və şairləri yada salaq. Təbii ki, eyni hal Böyük Britaniyada da mövcuddur. Yaxud rus dilində yazıb-yaratmış, dünyada tanınmış qazax, qırğız yazıçı və şairlərini götürək. Yazdıqları dili əsas sayaraq hindliyə və urduya ingilis, ərəbə fransız, türkə alman, qırğıza, qazaxa rus deyilsə, doğrumu olar? Və ya elə əhalisi ingiliscə danışan Amerika Birləşmiş Ştatlarına baxaq. Bütün amerikalı yazıçı və şairlərə "ingilis ədibləri" demək ədalətli və düzgün olardımı?

Ümumbəşəri ideyaları tərənnüm etmiş Nizami Gəncəvi lap çoxdan bütün dünyanınkı olan şairlər cərgəsindədir. O, dünyanın bir çox dillərinə tərcümə edilib, oxunur, sevilir. Lakin Nizami Gəncəvi Azərbaycan xalqının övladıdır, ilk növbədə Azərbaycan şairidir və onu öz ölkəsindən, öz xalqından ayırmaq təşəbbüsləri yolverilməzdir. Çünki əvvəllər də bəzi fars və erməni millətçiləri tərəfindən belə cəhdlərin olması müşahidə edilmişdir.

Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərindəki Şirinin erməni və Ermənistan hökmdarı kimi təqdim edilməsi də tarixi həqiqətin təhrifidir: "Şirinin milliyətcə kim olması sualının cavabını isə, təbii ki, Şirinin özündən yaxşı heç kim verə bilməz. "Xosrov və Şirin" məsnəvisinin "Şirinin cavabı" adlı fəslində Şirin belə deyir: "Mən qara gözlü türkəm". Bu qədər sadə".

Akademik məktubun sonunda Viktoriya və Albert Muzeyinin rəhbərliyindən Nizami Gəncəvi ilə bağlı mübahisə və narahatlıq yaradan materialların saytdan götürülməsi, ekspozisiyada müvafiq düzəlişlər aparılması məsələsinə diqqət yetirməyi xahiş edir və bu mövzu ilə əlaqədar muzeyə istənilən qədər əlavə və geniş elmi material və mötəbər tarixi sübut və məxəzləri təqdim etməyə, davamlı əməkdaşlığa hazır olduğunu bildirir.

## Qarabağdakı ərazi adlarının saxta təqdimatı yolverilməzdir

"Google maps" tətbiqində Azərbaycanın Qarabağ bölgəsindəki rəsmi ərazi adlarının Azərbaycan dilində göstərilməsi ilə yanaşı, saxta adlarla erməni dilində də göstərilməsi məsələsi diplomatik kanallarla "Google" şirkəti qarşısında qaldırılıb. Azərbaycan əraziləri adlarının təhrif edilməsi ilə bağlı şirkət rəhbərliyinə məktub ünvanlanıb və ölkəmizin müvafiq ərazilərinin rəsmi coğrafi adlarının siyahısı qarşı tərəfə təqdim edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva media vasitələrinin bununla bağlı sualını cavablandırarkən bildirib ki, may ayında BMT-nin Coğrafi adlar üzrə Ekspertlər Qrupunun (UNGEGN) illik sessiyasında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə hazırlanmış milli hesabat təqdim edilib.

Hesabatda 4589 yaşayış məntəqəsinin Azərbaycan, ingilis və rus dillərində rəsmi qaydada standartlaşdırılmış və təsdiq edilmiş adlarını əks etdirən siyahı, habelə Ermənistan-Azərbaycan münaqişəsinin təsirinə məruz qalmış ərazilərimizdə yerləşən və təhrif edildiyi müəyyənləşdirilmiş 125 coğrafi obyektin adı yer alıb.

BMT-nin müvafiq qətnamələrinə görə, hər hansı bir dövlətin səlahiyyətli dövlət qurumu tərəfindən standartlaşdırılmış coğrafi adlara dəyişiklik edilməsi yolverilməzdir və bu kimi dəyişikliklər BMT tərəfindən tanına bilməz.

"Google maps" platformasına gəldikdə onu da qeyd etmək istərdik ki, bu tətbiq istifadəçilərin fərdi müraciətləri və yanaşmaları prinsipi əsasında fəaliyyət göstərir. Bu baxımdan vətəndaşlarımızın, habelə qeyri-hökumət qurumlarının mövzu ilə bağlı fəal şəkildə fikirlərini şirkətə yazmaları çox önəmlidir. Məsələ diqqət mərkəzində saxlanılır və təhriflərin aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir", – deyə XİN rəsmisi bildirib.

## Şəhid və qazi ailələri üçün bayram tədbiri

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə şəhid və qazi ailələri üçün tədbir təşkil olunub.

Tədbir Bakı Şəhər Mədəniyyət Bas İdarəsi və Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin birgə təşkilatçılığı ilə keçirilib.

Şöbənin rəisi Zümrüd Səmədova tədbir iştirakçılarını qarşıdan gələn bayramlar münasibətilə təbrik edib. Bildirib ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər sayəsində artıq ikinci ildir ki, əlamətdar bayramlarımızı qalib xalqın nümayəndələri kimi qarşılayırıq.

Qeyd edilib ki, Vətən müharibəsində qanı və canı bahasına xalqımıza Qələbə qazandıran şəhid və qazi ailələrinə diqqət və qayğı, bu qəbildən olan tədbirlər davam etdiriləcək. Müdafiə nazirinin bayram təbrikini şəhid və qazi ailələrinə çatdıran Z.Səmədova tədbirin təşkilində əməyi keçənlərə təşəkkürünü bildirib.

Tədbirdə müğənnilər Elnur Məmmədov, Manana Caparidze və başqaları vətənpərvər mövzusunda mahnılar ifa ediblər.

Şaxta baba və Qar qız uşaqları əyləndirib, onlara xoş dəqiqələr bəxş edib.




## "Uşaqların həmrəylik duyğusu"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Heydər Əliyev Mərkəzində "Uşaqların həmrəylik duyğusu" adlı sərgi açılıb. Baş idarədən bildirilib ki, sərgidə bir qrup gəncin əl işləri nümayiş olunub.

Tədbirdə mərkəzin bələdçisi Mayrux Cavadovanın "Heydər Əliyev və dövlət uşaq siyasəti" mövzusunda mühazirəsi dinlənilib.

Sənətşünas və layihənin kuratoru Anar İbrahimov rəssamlıq sənətinin incəlikləri barədə danışıb. Sənətşünas Dilarə Əsədli sərgidə əl işləri nümayiş olunan gənclərə uğurlar arzulayıb.



"Azad" Tədris Mərkəzi şagirdlərinin ifasında kiçik ədəbi-bədii kompozisiya nümayiş olunub.

# "Həyata sevgi ilə..."

## Mikayıl Abdullayev mədəniyyət tariximizə adını əbədi həkk etmiş sənətkardır




əvvəli səh. 1-də

Nazir bildirdi ki, Mikayıl Abdullayevin ilham mənbəyi, yaradıcılığının təməli doğma vətəni Azərbaycandır. Rəssamın "Azərbaycan doğma Vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram" sözləri də bunun əyani sübutudur. O, yaradıcılığında milli-mənəvi ənənələri əks etdirməklə yanaşı, hər zaman bəşəri dəyərlərə, ideallara da geniş yer verib. Sənətkar Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və bir çox başqa ölkələrdə olduğu zaman gördüyü maraqlı anları, insanların həyat tərzini, mədəniyyətini əks etdirən silsilə əsərlər yaradıb. Mikayıl Abdullayevin əsərləri Paris, London, Berlin, Praqa, Budapeşt, Belqrad, Sofiya, Varşava, Dehli, Qahirə, Brüssel və digər ölkələrin muzeylərində ən dəyərli eksponatlar kimi qorunub saxlanılır.

Prezident İlham Əliyev tərəfindən bu il mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində müstəsna xidmətləri olan bir çox şəxsiyyətlərin yubileyləri ilə əlaqədar sərəncamlar imzalandığını qeyd edən Anar Kərimov bildirdi ki, Mikayıl Abdullayevin 100 illik



yubileyi də dövlət səviyyəsində qeyd olunur. Azərbaycan Respublikası Prezidentinin 10 sentyabr 2021-ci il tarixli sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən tədbirlər planı hazırlanıb, bir sıra tədbirlər həyata keçirilib. Mikayıl Abdullayevin yaradıcılığını özündə əks etdirən nəfis tərtibatlı kataloq yaxın günlərdə işıq üzü görəcək. Həmçinin rəssamın mərmərdən büstü hazırlanaraq Milli İncəsənət Muzeyinin kolleksiyasına daxil edilib.

Nazir çıxışının sonunda dedi: "Mikayıl Abdullayevin əsərləri zamanın bütün sınaqlarından keçərək hələ uzun illər boyu sənətsevərləri ruhlandıracaq. Sənətkarın həyat yolu isə gələcək nəsillər üçün seçdikləri peşəyə məsuliyyətli və fədakar yanaşması baxımından hər zaman nümunə olacaq".

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov çıxışı zamanı Mikayıl Abdullayevin yaradıcılıq özünəməxsusluğu barədə danışdı. Bildirdi ki, o, ictimai xadim kimi hər zaman insanların köməyinə çatıb, xeyirxah əməlləri ilə qəlblərdə iz salıb.

Rəssamın oğlu Cəmil Abdullayev Prezident İlham Əliyevə atasının irsinə göstərdiyi diqqətə görə təşəkkürünü bildirdi. O, həmçinin silsilə tədbir və layihələrin gerçəkləşməsinə görə Mədəniyyət Nazirliyinə minnətdarlığını ifadə etdi.

Çıxışlardan sonra sərginin rəmzi açılışını bildirən lent kəsildi və qonalar geniş, xüsusi zövq və dizaynla hazırlanmış ekspozisiya ilə tanış oldular. Ekspozisiyada nümayiş olunan həm rəngkarlıq, həm də qrafika nümunələri, tematik tablo, portret və mənzərə janrlarında əsərlər Mikayıl Abdullayevin rəngarəng sənət duyumunu əks etdirir.

Milli İncəsənət Muzeyində "Həyata sevgi ilə: Mikayıl Abdullayev" sərgisi mart ayına qədər davam edəcək.

**Lalə Azəri**

# "Azərbaycan çöhrəsi"

Dekabrın 22-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda "Azərbaycan çöhrəsi" adlı fotosərgi açılıb. Sərgi Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunub.



Fotoların müəllifləri tanınmış kinooperator, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Rafail Qəmbərov və 10 ilə yaxın ümummilli lider Heydər Əliyevin şəxsi fotoqrafı olmuş Rafiq Bağırovdur.

Dekabrın 27-dək davam edəcək sərgidə Rafail Qəmbərovun çəkdiyi 100-ə yaxın, Rafiq Bağırovun isə 26 fotosu nümayiş olunur.

Təşkilati dəstəyə görə Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilova təşəkkür edən Rafail Qəmbərov jurnalistlərə açıqlamasında deyib ki, bu sərgi Prezident İlham Əliyevin ad gününə bir hədiyyədir: "Sərgidə Azərbaycanın siması olan insanların fotoları nümayiş olunur. Azərbaycan insanları zahirən də, daxilən də gözəl, zəngin, kübardırlar. Sərginin ideyası da məhz Azərbaycanın simasını nümayiş etdirməkdir".

# Mədəni əlaqələrin genişlənməsi hər iki tərəf üçün faydalıdır

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Qənirə Paşayeva Misirin Azərbaycandakı səfiri Adel İbrahimlə görüşüb.

Adel İbrahim iki ölkə arasında mədəni əlaqələrin genişlənməsinin hər iki tərəf üçün faydalı olduğunu vurğulayıb. Diplomat Azərbaycan xalqını 44 günlük Vətən müharibəsində Zəfər münasibətilə bir daha təbrik edib.

Səfir Qənirə Paşayevanın bu günlərdə nəşr olunan "Sirlər dünyasına səyahət: Misir" kitabına görə müəllifə təşəkkür edib.

Görüş üçün dəvətə və xoş sözlərə görə səfirə təşəkkür edən Q.Paşayeva Misirə səfərlərindən, orada beynəlxalq tədbirlərdə iştirakından, görüşlərdən, təəssüratından və ölkələrimiz arasında əlaqələrdən söz açıb. Bildirib ki, rəsmi və ictimai qurumların xətti ilə baş tutan görüşlər, alimlərimizin, mədəniyyət, incəsənət xadimlərimizin əlaqələri sevindiricidir: "Qarşıdan Misirin Azərbaycanın dövlət müstəqilliyini tanımasının 30-cu ildönümü gəlir. Bu ərəfədə Azərbaycan-Misir parlamentlərarası işçi qrupunun üzvü olaraq belə bir kitabı oxuculara təqdim etməkdən məmnunam".

Görüşdə qarşılıqlı mədəni əlaqələrin perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

# Leyla Bədirbəylinin yubileyinə həsr olunmuş xatirə gecəsi

Dekabrın 21-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli teatr və kino aktrisası, Xalq artisti, Dövlət mükafatı laureatı Leyla Bədirbəylinin (1920-1999) 100 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirildi.

Qeyd edək ki, unudulmaz aktrisanın anadan olmasının 100 illiyi ilə əlaqədar ötən il Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanmışdı. Lakin COVİD 19 pandemiyası ilə əlaqədar tətbiq olunan sərt karantin rejiminə görə mədəni-kütləvi tədbirlərə məhdudiyyət qoyulduğundan sənətkarın yubiley tədbiri də təxirə salınmışdı.

Gecədə dövlət rəsmiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdi.

Teatrın foyesində Azərbaycan Dövlət Teatr Muzeyinin arxivi əsasında aktrisanın sənət yolunu əks etdirən fotolardan ibarət sərgi təşkil olunmuşdu.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Leyla Bədirbəylini həm görkəmli sənətkar, həm də gözəllik, zəriflik nümunəsi kimi xarakterizə etdi. Bildirdi ki, aktrisanın teatr və kinomuzda yaratdığı parlaq obrazlar bundan sonra da tamaşaçıların yaddaşında dərin iz salacaq. Onun canlandırdığı bənzərsiz obrazlar sayəsində yeni sənətçilər nəsli yetişib və onun açdığı sənət yolu davam etdirilib.



Elnur Əliyev qeyd etdi ki, tanınmış sənətkarların daim belə sevgi və ehtiramla xatırlanması həm əsl sənət dəyərlərinin ölməzliyinə, həm də yaradıcılıq ənənələrinin yaşadılmasına əlavə zəmin deməkdir: "Belə örnək sənətkarların qoyub getdiyi mirasın gələcəyə layiqincə daşınması üçün teatr və kino təmsilçilərimiz daim yeniliklərə, inkişafa can atmalıdırlar. Teatr Azərbaycan mədəniyyətinin vacib göstəricisidir və onun yeni dövrün tələblərinə uyğun inkişaf strategiyası müəyyənləşdirilməkdədir. Teatrlarımızın inkişafına dövlət tərəfindən bundan sonra da dəstək göstəriləcək. Ancaq teatrın ən böyük dəstəkçisi onun tamaşaçılarıdır. Bu mənada tamaşaçı ilə teatr arasındakı əlaqə daim canlı, dinamik olmalıdır".

Sonra Xalq artisti Vaqif Əsədovun ssenari müəllifi olduğu və quruluş verdiyi (ikinci rejissor Gülnar Hacıyeva) yubiley gecəsinin bədii hissəsinə, teatrallaşdırılmış kompozisiyaya keçildi.




Sənətkarın teatr və kino yaradıcılığından videoçarx nümayiş olundu. Beləcə, ağ-qara foto və video kadrlarda həm nostalgiya yaşandı, həm də bir sənətkar ömrünün ən yaddaqalan, ən kövrək məqamları vərəqləndi.

Sonra "Arşın mal alan" operettasından Gülçöhrənin (Leyla Bədirbəylinin ifasında) ariyası həm kadrlarda nümayiş olundu, həm də səhnədə gənc vokalçının ifasında canlı-canlı təqdim edildi.

Daha sonra aktrisanın səhnədə yaratdığı təkrarsız obrazlar sənət və şəxsiyyətinin heyranı olan xanım həmkarları tərəfindən yenidən canlandırıldı. "Solğun çiçəklər"in vəfalı Sarası, "Vaqif"in sevdalı Xuramanı, "Almaz"ın fədakar Almazı səhnədə göründü. "Qanlı toy" tamaşasından parça gecənin finalında ümumilikdə bir qadının – ananın, bacının, sevgilinin faciəsi təsirini yaratdı.

Leyla Bədirbəylinin sevə-sevə ölümsüzlük bəxş etdiyi qadın qəhrəmanlarının kinoekrandan "boylanan" kadrları izləndikcə onun aktrisa kimi fitri istedad və özünəməxsus ustalığı yenidən alqışlandı. Akademik Musiqili, Akademik Milli Dram və Gənc Tamaşaçılar teatrlarının orkestri, xoru, balet və aktyor truppası gecəni maraqlı və yaddaqalan etməyə çalışdılar.

Zəriflik və sevgi üzərində qurulan xatirə gecəsinə İlkin Əhmədovun ifasında "Qarabağın maralı" mahnısı ayrıca bir rəng qatdı. Muğam üçlüyü və skripkada solo ifalar da tamaşaçıların könlünü oxşadı.

**Həmidə**

## Bölgələrdən xəbərlər

# "Bəşəri ideyalar carçısı"

Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Quba rayon MKS Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə "Bəşəri ideyalar carçısı" adlı tədbir keçirilib. Tədbirdə "Nizami Gəncəvi-880" adlı sərgi nümayiş olunub. Qırmızı qəsəbə 1 saylı tam orta məktəbin şagirdləri şairin məşhur qəzəllərindən parçalar səsləndiriblər.




Ağcabədi RMİ Ağdam rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Qaradağlı kənd Mədəniyyət evində keçirilən "Nizami Gəncəvi lirikası" adlı tədbirdə kənd tam orta məktəbinin şagirdləri dahi şairin şeirlərini söyləyiblər.

Mədəniyyət Nazirliyinin dəstəyi, Gəncə RMİ, F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblının təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" çərçivəsində gerçəkləşən muğam müsabiqəsinin 2-ci seçim turu keçirilib. Müsabiqəyə Gəncə şəhəri, Bərdə, Samux, Goranboy, Gədəbəy, Kəlbəcər və s. rayonlardan 50 nəfər muğam ifaçısı qatılıb. İfaçıları "Göygöl" ansamblı (bədii rəhbər Sahil Quliyev) müşayiət edib.

Müsabiqədə Nizami Gəncəvinin qəzəlləri üstündə muğam və təsniflər, eləcə də xalq mahnıları ifa edilib.

Gəncədəki Nizami Gəncəvi muzeyi və məqbərəsinin birgə təşkilatçılığı ilə "Nizami ili" ilə bağlı keçirilən tədbirdə isə dahi mütəfəkkirin qəzəllərindən və kəlamlarından parçalar söylənilib.

Əlamətdar il münasibətilə Kürdəmir, Sabirabad, İsmayıllı, Şəki və Gəncə regional mədəniyyət idarələrinin birgə təşkilatçılığı ilə keçirilən "Xəmsə" yolu" layihəsi davam edir. Layihə üzrə Kürdəmir RMİ-nin Xalq teatrı Qəbələ rayon Mədəniyyət Mərkəzində "Xəmsə" adlı tamaşa nümayiş etdirib.

**Hazırladı: Nurəddin**



Şəki RMİ Balakən rayon Heydər Əliyev Mərkəzində ümumtəhsil məktəblərinin 11-ci sinif şagirdlərinə ulu öndərin zəngin siyasi irsinin öyrədilməsi məqsədilə keçirilən dərslərin birinci mərhələsi başa çatıb. Mərkəzlə rayon Təhsil Şöbəsi arasında imzalanan müqaviləyə əsasən, bu ilin sentyabr-dekabr aylarında təşkil olunan dərslərdə 35 tam orta məktəbdən 737 şagird iştirak edib.

Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyasında Xalq rəssamı Kamil Əliyevin 100 illiyi ilə bağlı "Azərbaycan xalçaçılıq sənətinin kamillik zirvəsində" adlı rəsm sərgisi təşkil edilib.

Lənkəran RMİ Astara rayon Heydər Əliyev Mərkəzində "Dünyada Azərbaycanın tolerantlıq modeli" mövzusunda konfrans keçirilib. Konfransda Astara RİH başçısının müavini Firəngiz Sadıxova, Gənclər və İdman Nazirliyinin sektor müdiri Elşən Hüseynov və başqaları mövzu ilə bağlı çıxış ediblər. Sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin istehsalı olan "Biz birlikdə güclüyük" sənədli filmi nümayiş olunub.

Sumqayıt RMİ Xızı rayon Heydər Əliyev Mərkəzində "Günəşim" kukla teatrının "Tıq-tıq xanım" tamaşası nümayiş olunub. Xızı rayon Cəfər Cabbarlı adına Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hazırlana tamaşanın Vətən müharibəsi şəhidlərinin övladları izləyiblər. Səhnə işi balacaların marağına səbəb olub.

# Konsert, konfrans, tamaşa, sərgi...

İsmayıllı RMİ Qəbələ Dövlət Rəsm Qalereyasında Xalq rəssamı Mikayıl Abdullayevin 100 illiyilə əlaqədar "Rənglərin dünyası" adlı sərgi keçirilib. Sərgidə tanınmış rəssamların qalereyanın fondunda saxlanılan müxtəlif janr və texnikalarda işlənmiş rəsm əsərləri nümayiş olunub.

Sabirabad RMİ Hacıqabul şəhər Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlunun (1937- 2000) yaradıcılığına həsr olunmuş sənətkarın əsərlərindən ibarət konsert proqramı təqdim edilib. Konserti Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə, rayonun



bir sıra idarə və müəssisələrinin rəhbərləri, mədəniyyət işçiləri və digər qonaqlar izləyiblər.



Ağstafa RMİ Qazax Dövlət Rəsm Qalereyası və 1 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Saz sənəti daim yaşayır" başlığı altında tədbir keçirilib. Tədbirdə qalereyanın dərnək üzvlərinin rəsmləri sərgilənib. Uşaq musiqi məktəbi saz sinfinin şagirdləri Aşıq Ələsgərin sözlərinə yazılmış musiqiləri səsləndiriblər.

Biləsuvar RMİ-nin əhatə etdiyi Neftçala Dövlət Rəsm Qalereyası Aşıq Ələsgərin 200 illiyi münasibətilə sərgi təşkil edib.

# Söz sərrafı – Aşıq Ələsgər

Sumqayıt RMİ Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzi Aşıq Ələsgərin 200 illiyinə həsr olunmuş "Qüdrətli söz sərrafı" adlı ədəbi-bədii gecə keçirib. Tədbirdə Sumqayıt Dövlət Dram Teatrının əməkdaşları, Əməkdar artistlər İzaməddin Bağırov və İlahə Səfərovanın ifasında "Anaxanımın küsməyi" dastan-rəvayəti əsasında səhnəcik təqdim olunub. Aşıq Ələsgərin və həyat yoldaşı Anaxanımın obrazlarının canlandırıldığı səhnəcik və teatrın gənc rejissoru Ümid Abbasın rəhbərlik etdiyi "Dərviş" qrupunun çıxışları tədbir iştirakçılarının böyük marağına səbəb olub.

Ağcabədi RMİ Ağdam rayon MKS-nin 29 saylı II Quzanlı kənd kitabxanası tərəfindən keçirilən tədbirdə saz-söz ustadının qoşma və deyişmələri Hafiz Əsgərov adına Quzanlı tam orta məktəbinin şagirdləri və kitabxananın oxucuları tərəfindən səsləndirilib.

# Bu gün o gündür...

## Qalib Prezident və Müzəffər Komandanın həyat yolundan cizgilər

əvvəli səh. 1-də

### "Öz şəhərimizi uzaqdan görmək nə qədər ağrılı idi"

*"Bir neçə il bundan əvvəl bu bölgədə, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik"* – İlham Əliyev bu sözləri 23 noyabr 2020-ci ildə, Ağdamdan düşmənin ayağının kəsildiyi tarixdən üç gün sonra yurd yerimizə qədəm basarkən demişdi.

*"Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım... Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bu tarixi günləri yaşayırıq. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq....".*

Zəfərə aparan yol zamanın neçə aşırımından keçmiş, illərlə sürən siyasi-diplomatik mübarizələrlə yoğurulub, dövlətin iqtisadi gücü, hərbi qüdrəti ilə tamamlanan təməl – strategiya üzərində ərsəyə gəlmişdi. Bu strategiyanın əsasını ulu öndər Heydər Əliyev qoymuş və dövrün hələ məhdud imkanları içində, tədricən özünü təsdiq edən Azərbaycanın gələcək inkişafının əsas vektoru buna istiqamətlənmişdi. Bu strategiyanın reallaşmasında hələ prezidentlik fəaliyyətinə başlamazdan öncə İlham Əliyevin də aktiv rolu, fəaliyyəti vardı...

*"Biz Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verə bilmərik"* – Heydər Əliyevin 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində bəyan etdiyi sözlər işğalçı Ermənistana və beynəlxalq birliyə ünvanlanan siyasi mesaj idi. Həmin mesajın praktik olaraq həyata keçməsi isə onun mühüm siyasi mahiyyətinə tən gələn hərbi və iqtisadi bünövrəni zəruri edirdi. Bu istiqamətdə 2003-cü ilədək ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında böyük işlər görülmüş, o cümlədən Azərbaycanın gələcək iqtisadi, eləcə də hərbi-siyasi qüdrətinə təməl olacaq neft-qaz layihələrinin uğurlu icrası başlanmışdı. Heydər Əliyev tərəfindən təməli qoyulan və Azərbaycanı strateji inkişafın magistralına çıxaran layihələr 2003-cü ildən sonra, bu siyasətin İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi sayəsində, real bəhrəsini verməyə başladı.

### Azərbaycanın bir nömrəli problemi

*"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir... Hamı bilməlidir ki, bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz tükənməz deyil… Azərbaycanda ordu quruculuğu sahəsində böyük işlər görülmüşdür. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir… Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcək. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı qüdrətli dövlətə çevirəcəyik..."* – İlham Əliyev bu sözləri 2003-cü il oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti kimi and içərkən bəyan etmişdi.

İlham Əliyevin dövlət başçısı postunda etdiyi ilk çıxış Azərbaycanın gələcək inkişaf perspektivlərinə işıq tutan proqram mahiyyətli nitq olmaqla bərabər, dövlətin bir nömrəli probleminin həllinə yönəlik istiqamətləri də ifadə etmişdi: güclü siyasət, güclü iqtisadiyyat, güclü ordu. Məhz bu üç təməl istiqamətin vahid strategiya olaraq uğurla həyata keçirilməsi nəticə etibarilə Azərbaycan dövlətinin qüdrətini, onun ərazi bütövlüyünü təmin edəcək həlledici faktor olacaqdı. Çünki məhz güclü siyasəti güclü iqtisadiyyatla təmin olunan və arxasında güclü ordusu olan dövlət bütün xarici təhdidlərə sinə gərə bilərdi.



Qeyd etdiyimiz kimi, İlham Əliyev bu strategiyanın işlənməsi və realizə olunmasında 2003-cü ildən əvvəl də bilavasitə iştirak etmiş, Azərbaycanın bir nömrəli probleminə beynəlxalq münasibətin formalaşması, onun çözümü üçün müstəsna önəm kəsb edən iqtisadi təməlin atılması, Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi işinə mühüm töhfə vermişdi. 1994-cü ildən ARDNŞ-nin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti, 1996-cı ildən isə birinci-vitse prezidenti vəzifəsində dünyanın iri neft şirkətləri ilə danışıqlara rəhbərlik edən, müxtəlif dövlətlərin rəsmiləri ilə mütəmadi təmasda olan İlham Əliyev bu müddətdə özünü bacarıqlı diplomat kimi təsdiqləmişdi və ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşmiş tarazlı xarici siyasət strategiyasının başlıca prinsipini hər zaman diqqətdə saxlayırdı: Azərbaycan özünün zəngin neft ehtiyatları ilə dünya güclərinin barışmaz rəqabətinə deyil, səmərəli əməkdaşlığına meydan olmalıdır.

*"Azərbaycan müstəqil dövlət olaraq ilk addımlarını atırdı. Təbii ki, biz neft kimi bir sərvətə malik olduğumuzdan həm beynəlxalq neft şirkətlərinin, həm də mənafeləri Azərbaycanda kəsişən bir çox dövlətlərin güclü maraq obyektinə çevrildik. Bizə belə güclü diqqət hansısa rəqabət, müəyyən problemlər yarada bilərdi. Ona görə də mən həmişə demişəm: biz istəyirik ki, Azərbaycan rəqabət meydanı deyil, müxtəlif mənafelər arasında əməkdaşlıq zonası olsun…",* – deyə İlham Əliyev sonralar müsahibələrinin birində vurğulamışdı.

Beləliklə, prinsipial, ən əsası isə, realist siyasətlə güclü iqtisadiyyatın təməl bağlılığı və bunun nəticə etibarilə dövlətin qüdrətinin təmin olunmasında hansı rol oynadığı İlham Əliyev üçün hələ prezidentlikdən xeyli əvvəl nəzəri məsələ deyildi. Bu baxımdan onun 1996-cı ildən etibarən millət vəkili, o cümlədən Milli Məclisdə ABŞ Konqresi ilə əməkdaşlıq qrupunun rəhbəri, 2001-2002-ci illərdə isə Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) deputat qrupunun rəhbəri kimi, 2003-cü ilin yanvarından həmçinin AŞPA-nın vitse-prezidenti postunda fəaliyyəti xüsusi qeyd olunmalıdır. Bu dövrdə Azərbaycanın bir nömrəli probleminin Qərb dairələrinə çatdırılması kimi vacib missiyanın mühüm hissəsini o həyata keçirmişdi.

> Prinsipial, ən əsası isə, realist siyasətlə güclü iqtisadiyyatın təməl bağlılığı və bunun nəticə etibarilə dövlətin qüdrətinin təmin olunmasında hansı rol oynadığı İlham Əliyev üçün hələ prezidentlikdən xeyli əvvəl nəzəri məsələ deyildi...

1997-ci ilin noyabrında İlham Əliyev Vaşinqtonda "Xəzər neft kəməri" mövzusunda keçirilən konfransda bildirmişdi: *"Ermənistan hər il ABŞ-dan 100 milyon dollar yardım alır. Azərbaycanlılar bilmək istəyirlər ki, nə üçün erməni lobbisi belə güclüdür! Bu lobbi ədalətdən, həqiqətdən, ən adi bir məntiqdən də güclüdür? Məgər bu lobbi Azərbaycanla ABŞ arasında gələcəkdə həyata keçiriləcək böyük müştərək layihələrdən də əhəmiyyətlidir?... Bu müharibənin qurbanı Ermənistan yox, Azərbaycandır. Bizim torpaqların 20 faizi işğal edilib, bir milyon əhalimiz qaçqın vəziyyətində yaşayır. Bizim tarixi irsimiz, evlərimiz, məktəblərimiz, məscidlərimiz, əcdadlarımızın qəbirləri vandallar tərəfindən dağıdılıb".*

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti barədə həqiqətlərin Avropa Şurasında qəbul və etiraf olunmağa başlanması Qarabağ probleminə beynəlxalq aləmdə ədalətli baxışın təmin olunması üçün müstəsna önəm kəsb edirdi. İlham Əliyev 2001-ci ilin yanvarında, ölkəmiz Avropa Şurasına qəbul edilən zaman bildirmişdi: *"Avropa Şurası kimi mötəbər təşkilatda təmsilçilik Azərbaycan üçün ilk növbədə Ermənistanla siyasi-diplomatik savaşı daha effektli aparmaq nöqteyi-nəzərindən vacibdir. Ölkəmizin AŞPA-dakı nümayəndə heyətinin başlıca vəzifəsi də məhz Ermənistanın təcavüzkar siyasətinin beynəlxalq müstəvidə ifşası olacaq..."*.

### "Siz mənim sözlərimi yadda saxlayın"

İlham Əliyev istər Amerikadakı görüşlərində, istərsə də AŞPA-da çıxışlarında Ermənistana havadarlıq edən dairələrin nəzərinə çatdırırdı ki, Azərbaycanın iqtisadi imkanları, apardığı siyasət onu regionun lider ölkəsinə çevirəcək, Ermənistanın isə bu işğalçılıqdan nəticə etibarilə qazancı olmayacaq. Yeritdiyi işğalçılıq siyasətinin Ermənistan üçün çox baha başa gələcəyi bu ölkənin siyasi çevrələrinə də ünvanlanırdı.

Bu xüsusda İlham Əliyevin 2001-ci ilin sentyabrında AŞPA-nın sessiyası zamanı Strasburqda "Aravot" qəzetinə (yeri gəlmişkən, bu, Ermənistanın indiki baş naziri, o zamanlar jurnalist olan Nikol Paşinyanın yer aldığı siyasi cəbhənin qəzeti idi) dedikləri erməni tərəfinə əlamətdar mesaj idi: *"Ermənistan hər vəchlə Qarabağ məsələsinin əsl mahiyyətinin üstünü vurmamağa, yəni Azərbaycanın torpaqlarının işğalını, Azərbaycana qarşı təcavüzü açıb-ağartmamağa çalışır... Siz mənim sözlərimi yadda saxlayın: Ermənistanın vəziyyəti getdikcə ağırlaşacaq, bu cür qəsbkarlıq siyasətini aparmaq onun üçün daha çətin olacaqdır. Əlbəttə, münaqişə nəticəsində Azərbaycan zərər çəkmişdir. Amma Ermənistanla Azərbaycanın perspektivlərini müqayisə etsək, görərik ki, onların arasında uçurum dərinləşir. Bir şeyi başa düşün: Azərbaycan bu cür vəziyyətlə heç vaxt razılaşmayacaq. Bu gün Ermənistan regional layihələrdən tamamilə təcrid olunmuşdur. Vaxt ötəcək, onda gec olacaqdır... Açığını deyəcəyəm, sizdə perspektiv barədə düşünən siyasətçilər görmürəm".*

İlham Əliyevin erməni cəmiyyətinə ünvanladığı mesaj AŞPA-da alınan qərarlarla da təsdiqlənirdi. 2002-ci ilin yayında erməni tərəfin etirazına rəğmən britaniyalı parlamentar Terri Devis Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçi təyin edildi. Bir müddət sonra isə Ermənistanın Avropa Şurası qarşısında öhdəliklərinə dair qətnamədə Azərbaycanın ərazilərini işğal etməsi faktı ilk dəfə təsbit edildi...

Ümumilikdə 2001-2003-cü illərdə İlham Əliyevin rəhbərliyi altında ölkəmizin AŞPA-dakı deputat qrupu Ermənistanın Azərbaycana qarşı təcavüzünün fəsadları, qaçqın və köçkünlərin həyat şəraiti, işğal olunmuş ərazilərdəki milli mədəniyyət abidələrimizin dağıdılıb talan edilməsi və s. məsələləri əks etdirən 30-dan çox qətnamə, bəyanat, müraciətin yayılmasına, müzakirəsinə və Avropa Şurasının sənədləri kimi qəbul edilməsinə nail olmuşdu. Məhz İlham Əliyevin rəhbərliyi ilə başlanmış məqsədyönlü fəaliyyətin nəticəsi idi ki, 2005-ci il yanvarın 25-də AŞPA-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini əks etdirən və Ermənistanın təcavüzkar dövlət olduğunu təsbit edən 1416 saylı qətnamə qəbul edildi...

Bütün bunlar – hər nə qədər həmin dövrdə işğalçıya təzyiq etmək, təcavüzə son qoymaq üçün praktik təsir vasitəli sənədlər olmasa da – mahiyyət etibarilə Azərbaycanın beynəlxalq müstəvidə haqlı mövqeyini tədricən gücləndirən, irəlidəki haqq savaşının siyasi əsaslarını hazırlayan mühüm addımlar idi...

### "Atamın başladığı işi davam etdirmək mövqeyindəyəm"

2003-cü ilin 4 avqustunda İlham Əliyevin Azərbaycan Respublikasının Baş naziri təyin olunması 10 il ərzində Azərbaycanın sabit inkişaf kursunun, milli müstəqilliyin və dövlətçiliyin qarantı olmuş Heydər Əliyev siyasətinin dönməzliyinin təmin olunması istiqamətində müstəsna əhəmiyyətli hadisə idi. Heydər Əliyevin siyasət, diplomatiya və dövlətçilik məktəbinin ən layiqli davamçısı, Azərbaycan cəmiyyətinin gələcək lider kimi gördüyü şəxsiyyət dövlət idarəçiliyi iyerarxiyasında haqq etdiyi növbəti pilləyə yüksəlmişdi.

İlham Əliyev bu barədə ABŞ-ın "Vaşinqton Post" qəzetinə müsahibəsində belə demişdi: *"Mən bu seçimi şüurlu etmişəm və xoşbəxtəm ki, atamın başladığı işi davam etdirmək mövqeyindəyəm".*

Heydər Əliyevin yolunu davam etdirmək Azərbaycan dövlətinin mənafelərini ən yüksək səviyyədə müdafiə və realizə etməyi bacarmaq deməkdir. 2003-cü il sentyabrın 24-də BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən Baş nazir İlham Əliyevin Qarabağ məsələsi ilə bağlı bəyanatı – *"Azərbaycanın səbri sonsuz deyil və heç kim bundan sui-istifadəyə cəhd etməsin"* – bunu bacaracaq lider olacağının mesajı idi. O, liderlik keyfiyyətlərini öz fəaliyyəti ilə dəfələrlə nümayiş etdirmişdi və artıq bunu Azərbaycan dövlətinin birinci şəxsi simasında sübuta yetirməyin zamanı idi. 2003-cü il oktyabrın 1-də Heydər Əliyevin Azərbaycan xalqına müraciəti İlham Əliyevə bu məsuliyyətli yolda ən yüksək xeyir-dua oldu.

*"1990-1993-cü illərdə respublikamızda yaranmış siyasi və hakimiyyət böhranından, idarəsizlik və qarmaqarışıqlıqdan istifadə edən Ermənistan ordusu Azərbaycanın torpaqlarını işğal etdi, bir milyondan çox soydaşımızı qaçqın və köçkün vəziyyətinə saldı... Xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik. Mən əminəm ki, biz bu məsələni də mütləq həll edəcəyik... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm...".*

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Azərbaycanın bir nömrəli problemini həll etmək üçün dövlətin bütün potensialını səfərbər edəcəyinə söz verdi: *"Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcək... Əlbəttə, yəqin çətinliklər də olacaq. Amma mən bu çətinliklərə hazıram. Əgər mən özümdə belə bir hazırlıq görməsəydim, heç vaxt bu yola getməzdim...".*

### İllər sonra Zəfərə aparacaq yollar

İrəlidə, həqiqətən də, çox mürəkkəb, çətin, geosiyasi düyünlərlə dolu illər vardı. Amma xalqa arxalanaraq, onun inam və etibarına, birlik və bərabərliyinə güvənərək aşılmayacaq sədd yoxdur. İlham Əliyev bu illərdə hər zaman xalqla bir yerdə oldu, şəxsən özü üçün əlamətdar olan günlərdə də...

> "Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik..."

2011-ci ilin 24 dekabrı. İlham Əliyevin 50 yaşı tamam olur. Prezident xanımı ilə Ağcabədi rayonunun Taxtakörpü ərazisində laçınlı məcburi köçkünlər üçün salınan yeni qəsəbədə, məcburi köçkünlərdən birinin evindədir.

Dövlət başçısı Azərbaycanın əsas hədəfinə doğru keçilən yoldan və qarşıdakı vəzifələrdən söz açır: *"Biz bu işğala son qoyacağıq. Yəni bu, qaçılmaz bir həqiqətdir. ...Sadəcə, çalışırıq ki, bunu hələ ki, danışıqlar yolu ilə həll edək və eyni zamanda daha da güclənək... Biz işləyirik, öz işimizi görürük, güclənirik, daha da çox tərəfdaş əldə edirik... Biz siyasi-iqtisadi, hərbi gücümüzü, bölgədəki təsir imkanlarımızı, dünyadakı mövqelərimizi bilirik. Budur Qarabağ məsələsinin həllinə aparan yollar. Biz bu yollardan istifadə edəcəyik, edirik. Bizə əlavə güc verən xalqın bu siyasətimizə göstərdiyi dəstəkdir. Azərbaycan dövləti qarşısında bu məsələdən daha vacib məsələ yoxdur… Mən şəxsən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik... İllər keçdikcə biz daha da güclənəcəyik, Ermənistan daha da zəifləyəcəkdir. Nə qədər ki, torpaqlarımız işğal altındadır, Ermənistana qarşı bütün cəbhələrdə mübarizə aparılır və aparılacaqdır. Bu məsələ həll olunmayana qədər Azərbaycan xalqı rahat yaşaya bilməz və biz sakitləşməyəcəyik.*

*Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda hələ ki, işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm. Biz öz ərazi bütövlüyümüzü mütləq bərpa edəcəyik. Mən bu barədə fikirlərimi dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, bu, sadəcə olaraq sözlər deyil, sadəcə olaraq bizim arzularımız deyil, bu, həqiqətdir...".*

Doqquz il sonra bu həqiqəti bütün dünya gördü.

*"...Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq – həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq..."* – Müzəffər Ali Baş Komandanın 2020-ci il dekabrın 1-də Laçın rayonunun işğaldan azad olunması münasibətilə televiziya ilə xalqa müraciətində dediyi bu sözlər həqiqət anı idi.

### Təkrarlanan tarix və rəqəmlər

24 noyabr 2003-cü il – Prezident İlham Əliyev həmin gün "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzalamışdı. Bu, onun dövlət başçısı postunda imzaladığı ilk proqram xarakterli fərman idi. Bəlkə də həmin gün İlham Əliyev nə vaxtsa Azərbaycanın işğaldan azad ediləcək əraziləri ilə bağlı belə bir sənədi imzalayacağını da fikrindən keçirmişdi...

24 noyabr 2020-ci il – tam 17 il sonra eyni gündə Prezident İlham Əliyev əsarətdən qurtulan yurd yerlərimizdə dövlətimizin suveren idarəçiliyini təsbit edən sənədə – "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında" sərəncama imza atdı.

Təsadüf idimi? Təbii ki, yox. Amma simvolik idi...

Prezident İlham Əliyev tarixin təkrarlanmasına təsadüf kimi yanaşmadığını bir müddət sonra (2021-ci il avqustun 30-u) Şuşada bu sözlərlə ifadə edəcəkdi: *"Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra ikinci dəfə 1982-ci ilin iyul ayında – iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq...".*

"Bu məsələ həll olunmayana qədər Azərbaycan xalqı rahat yaşaya bilməz və biz sakitləşməyəcəyik" – 2011-ci ildə deyilmiş sözlər artıq öz yerinə oturmuşdu...

... Zamanın maşını real olmasa da, ən müşkül görünən istəyi də zaman içində gerçəyə çevirmək mümkündür. Güc, imkan və hədəfləri doğru seçib, nəyi nə zaman, necə edəcəyini dəqiq bilərsənsə.

***

On il öncə bu gün dünyaca məşhur telejurnalist Prezident İlham Əliyevə "zaman maşınında keçmişə qayıtmaq istərdinizmi" deyə soruşanda o, əgər mümkün olarsa – keçmişə deyil, gələcəyə, on il sonraya baxmaq istədiyini demişdi. On il sonra nəyi görmək istəyirdi? Bunu təxmin edə bilərik...

Bu gün həmin on ilin tamamıdır. İlham Əliyev on il öncə ürəyində tutduğu hədəfi məqsədyönlü fəaliyyəti, bacarığı, uzaqgörən siyasəti və qətiyyəti ilə gerçəyə çevirə bilməsinin qürurunu yaşayır. Qalib Prezident və Müzəffər Komandan kimi. Milli qürurunu ucaltdığı xalqı ilə birlikdə...

On il öncə bu gün laçınlı məcburi köçkün Prezident İlham Əliyevə "50 yaşınızı gəlib bizimlə keçirməyinizi heç nə ilə əvəz etmək olmaz. Bunun qiyməti yoxdur. Gün o gün olsun ki, 100 yaşınızı da qeyd edəsiniz" arzusunu ifadə edəndə o, "Mən adətən öz ad günlərimi qeyd etmirəm. Sizinlə birlikdə Qarabağ torpağında bu günü qeyd edək" demişdi.

Bu gün o gündür…

Azərbaycana tarixinin ən böyük Zəfərini bəxş edən Liderin günü...

**Vüqar Əliyev**

# "Minnətdarlıq bizi daha yüksək səviyyəyə ucaldan ülvi hissdir"

## Heydər Əliyev Mərkəzində braziliyalı rəssamın sərgisi

Dekabrın 22-də Heydər Əliyev Mərkəzində təsviri incəsənətin "küçə sənəti" (street art) üslubunda işləyən braziliyalı rəssam Nina Pandolfonun "Minnətdarlıq" (Gratitude) adlı fərdi sərgisi açılıb.

Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Mərasimdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov pandemiyanın yaratdığı fasilədən sonra təşkil olunan sərginin əhəmiyyətini vurğulayıb. Bildirib ki, bir neçə gündür Bakıda olan müəllif ekspozisiyanın qurulmasında şəxsən iştirak edib.

Sərginin konsepsiyası haqqında danışan braziliyalı rəssam öncə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və sərginin təşkilində əməyi olan hər kəsə təşəkkürünü ifadə edib.

Nina Pandolfo qeyd edib ki, "Minnətdarlıq" sərgisi hər kəsin minnətdar olmasını ehtiva edən bir sərgidir, daha doğrusu, həyat tərzi anlamındadır. "Minnətdarlıq bizi daha yüksək səviyyəyə ucaldan ülvi bir hissdir. O, bizə çətin anların keçib-getdiyini, tezliklə gözəl bir şəfəqin gələcəyini öyrədir. Bizə paylaşmağı, birləşməyi, başqalarını duymağı öyrədir. Ürəyimizin sıxıldığını hiss etdiyimiz zaman gözlərimizə təbəssüm gətirən bir hissdir. Bizi digər insanlarla və həyatla unikal və sıx şəkildə əlaqələndirir. Ümidvaram ki, bütün ziyarətçilər mənim üçün heç bir etnik mənsubiyyəti yox, daha çox qadın olmaq vəziyyətini təmsil edən personajların təsirini hiss edə bilərlər, gücün kövrəklikdə olduğunu hiss edə bilərlər. Çünki qadın zəif deyil, kövrəkdir. Zəiflik gücün olmamasıdır. Kövrəklik isə həssaslıqdır. İşləmək, başqalarına dəstək olmaq, onlara qayğı göstərmək, bir sözlə, biz qadınların etdiyi hər şeyi etmək üçün bizə güc verən elə qadının həssaslığıdır", - deyə Nina Pandolfo bildirib.

Braziliya səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya bu möhtəşəm təşəbbüsə görə, Fondun vitse-prezidenti Leyla Əliyevaya Nina Pandolfonu Azərbaycana dəvət etdiyi üçün təşəkkürünü bildirib.

Sonra sərgi ilə tanışlıq olub.



Sərgidə müəllifin multikultural dünyanı təqdim edən, etnik baxımdan müxtəlifliyi ilə seçilən qadınlara həsr olunan əsərləri nümayiş etdirilir. Ziyarətçilər həm də Nina Pandolfonun qraffiti instalyasiyaları ilə də tanış ola bilər.

Müəllif hesab edir ki, minnətdarlıq hissi daim ətrafa aşılanmalı və təşviq edilməlidir. Vəziyyətdən asılı olmayaraq, hər zaman minnətdar olmaq üçün səbəb tapmaq mümkündür.

Sərgiyə çıxarılan əsərlərdəki qadın obrazları fərqli mədəniyyətlərə mənsub olaraq geniş açılmış gözlərlə təsvir ediliblər. Bununla da müəllif bizi əhatə edən multikultural dünyanın seyr edilməsinin və buna minnətdarlıqla yanaşılmasının vacibliyini vurğulayır.

Braziliyalı rəssam əsərləri ilə bağlı təəssüratlarını jurnalistlərlə də bölüşüb. O deyib: "Mənim sərgimin əsası təkcə minnətdarlıq deyil, eyni zamanda minnətdar olmaqdır. Mən cəmiyyətə bu mesajı ötürmək istəyirəm. Sərgi çərçivəsində yaratdığım qaranlıq otağın öz mənası var. Demək istəyirəm ki, biz minnətdar olsaq, qaranlıqda olan, kölgədə olan şeyləri işıq üzünə çıxaracağıq. O otağa keçən hər bir kəs öz işığını orada görəcək".



Səfir Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruza isə müsahibəsində sərginin daşıdığı mənanı vurğulayıb: "Bu sərgi dünyəvi xarakter daşısa da, burada Braziliyanın nüansları var. Sərgidə nümayiş olunan əsərlər müxtəlif irqlərin nümayəndələridir – Braziliyada olduğu kimi. Azərbaycan odlar diyarı olduğu kimi, biz də buraya hisslərimizlə bir od gətirdik. Çox xoşbəxtəm ki, bu duyğuları Braziliya rəssamı gətirdi".

Sərgi 2022-ci il iyunun 19-dək davam edəcək.

Nina Pandolfo 1977-ci ildə Braziliyada anadan olub. Karlos de Kampos adına Dövlət Texniki Məktəbində vizual kommunikasiya üzrə təhsil alan Nina Pandolfo incəsənətin yeni üsulu ilə San-Paulu küçələrini bəzəməyə başlayır, 90-cı illərin Braziliya qraffiti səhnəsinin ayrılmaz nümayəndəsinə çevrilir.

Pandolfo təkcə Braziliyada yox, dünyanın bir çox yerlərində, o cümlədən Avropanın bir sıra ölkələrinin və ABŞ-ın müxtəlif sənət qalereyalarında keçirilən sərgilərdə iştirak edib.

# İstedadı düzgün istiqamətləndirmək lazımdır

## "Uşaqlar vokal sənətinə ciddi yanaşırlarsa, 17 yaşdan sonra oxumağa başlamalıdırlar"

Artıq yeni bir nəsil böyüyüb. Yaşlı nəslin nümayəndələri ürəklərində Vətən, torpaq nisgil daşıyırdılar. Mən özüm də otuz ilə yaxın bu ağrı ilə yaşamışam. Şükürlər olsun ki, bizim bu ağrılarımıza son qoyuldu, doğma Qarabağımız yağı tapdağından azad olundu.



Bu sözləri dekabrın 22-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında keçirilən mətbuat konfransında akademiyanın Solo oxuma və opera hazırlığı kafedrasının müdiri, professor, Xalq artisti, Dövlət mükafatı laureatı Xuraman Qasımova deyib.

"Bu otuz ildə mən bacım – Xalq artisti Fidan Qasımova ilə dünyanı dolaşdıq. Heç yerdə Qarabağın təbiəti kimi gözəlliyə malik ikinci bir yer görmədik. Biz öz vətənimizi sevməsəydik Qarabağa qayıtmazdıq. Otuz il ərzində qaçqın, didərgin taleli bir milyondan çox həmvətənimiz çox çətin günlər yaşadı. Amma heç vaxt ümidlərini itirmədilər. Onlar ölkə başçısına da, Ordumuza da güvənirdilər. Prezident İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuz doğma yurdumuzu bizə qaytardı. Qarabağı Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın qəhrəman oğulları azad etdi. Bakı Musiqi Akademiyasının tələbələri də cəbhəyə könüllü getmək üçün yazılmışdılar. Onların müharibədən sonra bizə danışdığı hadisələri göz yaşlarsız dinləmək olmurdu. Müharibə itkisiz olmur. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin", – deyə Xuraman Qasımova bildirib.

Şuşada "Xarıbülbül" musiqi festivalının, Vaqif Poeziya Günlərinin keçirildiyini söyləyən Xuraman Qasımova qeyd edib ki, bizə Üzeyir bəyi, Vaqifi, Natəvanı, Xan Şuşinskini, Bülbülü və digər böyük dühaları bəxş etmiş qədim şəhər Azərbaycanın mədəniyyət paytaxtı kimi bu gün yeni dirçəliş, inkişaf yoluna qədəm qoyub.

Ölkə başçısını 60 illik yubileyi münasibətilə təbrik edən sənətkar deyib: "Hər bir azərbaycanlı fəxr edə bilər ki, onun Prezidentinin adı dünyanın qalib sərkərdələri siyahısındadır. Bu gün İlham Əliyev yubileyini qəhrəman dövlət başçısı kimi qeyd edir. Heydər Əliyevin mədəniyyət siyasəti Prezidentimiz İlham Əliyev tərəfindən çox ləyaqətlə davam etdirilir".

Jurnalistlərin suallarını cavablandıran X.Qasımova bildirib ki, gərək müğənni olmaq istəyən uşaqların istedadını valideynləri düzgün dəyərləndirsin, onlara düzgün istiqamət versinlər. Uşaqlar vokal sənətinə ciddi yanaşırlarsa, 17 yaşından sonra oxumağa başlamalıdırlar. Çünki azyaşlı uşaqların istedadını qiymətləndirmək çətin olur.

Xarici dilləri bilməyin vacib olduğunu deyən X.Qasımova qeyd edib ki, əvvəllər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında əsərləri xarici dildə oxumaq ənənəsi vardı. Təəssüf ki, indi tələbələr italyan, alman, ingilis dillərini yaxşı bilmir. Opera sənətinin dünyada daha yaxşı təbliği üçün xarici dilləri mənimsəmək olduqca vacibdir.

# "Səhnədən səngərə: Qazilər" layihəsi davam edir

Mədəniyyət Nazirliyinin "Səhnədən səngərə: Qazilər" layihəsinin beşinci buraxılışı 44 günlük Vətən müharibəsinin iştirakçısı Ömər Mirzəxanova həsr olunub.

Videomaterialda Ömər Roman oğlu Mirzəxanov haqqında geniş məlumat verilir.

Bildirilir ki, Vətənimizin şanlı tarixini yazan igidlər sırasında Ömər Mirzəxanov da var. Ailənin tək övladı olan Ömər Vətən müharibəsinə könüllü yollanıb. Ağır yaralansa da, yenidən döyüş yoldaşlarının yanına, savaşın qaynar nöqtəsinə dönüb. Həyatının ən gözəl xəbərini – Zəfər müjdəsini də burada alıb.

Ömər Mirzəxanov hazırda Azərbaycan Film Komissiyasında (Filming Azerbaijan) videomontajçı vəzifəsində çalışır. O, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

# Xalq teatrının "Nizami dünyası"

Masallı rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının səhnəsində "Nizami dünyası" adlı musiqili ədəbi-bədii kompozisiya nümayiş olunub. Rejissor Cəmaləddin Əliyevin quruluş verdiyi ədəbi-bədii kompozisiya Xalq teatrının və Masallı Dövlət Regional Kollecinin birgə layihəsidir.



Tamaşadan əvvəl çıxış edən Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov və rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova "Nizami Gəncəvi İli" çərçivəsində keçirilən tədbirlərin gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynadığını diqqətə çatdırıblar.

Sonra kompozisiya nümayiş olunub.

Sonda "Nizami ili"ndə keçirilmiş mədəniyyət tədbirlərində fəal iştirak edən tələbələrə regional idarənin təşəkkürnamələri təqdim olunub.

# Ölümlü "diri" İskəndər

## Yaxud Tanrı olmaq asan deyil...



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "İskəndərə yeni namə" tamaşasının premyerası haqqında xəbər vermişdik. "Nizami Gəncəvi İli"nə ən yaxşı sənət töhfələrindən olan səhnə işi haqqında bir qədər ətraflı söz açacağam.

Məlumat üçün deyim ki, səhnə işinin ideya müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq üzrə rəssamı Rafael Həsənovdur.

Yazıçı-ssenarist İlqar Fəhminin ssenarisi əsasında ərsəyə gələn tamaşanın səhnə plastikası Xalq artisti Pərviz Məmmədrzayevə, səhnə qrafikası Binyamin Sailova məxsusdur. Tamaşada Xalq artisti Nurəddin Mehdixanlı (Hörmüz), Əməkdar artistlər Şövqi Hüseynov (Xızır), Elşən Rüstəmov (Əflatun), Kəmalə Müzəffər (yaşlı Rövşənək), İlqar Cahangir (İsgəndərus), aktyorlar Ziya Ağa (İskəndər), Fəridə Şahbazova (gənc Rövşənək), Rüstəm Rüstəmov (Ərəstun), Vüsal Mustafayev (Dəğyənus), Elçin Əfəndi (Antiqon) və Sənan Kazımlı (Vəliəhd Sokrat) çıxış edirdilər.

Tamaşa bizim ənənəvi teatr mühitində yeni görünən fərqli üsluba malikdir. Böyük fatehin obrazında bizə "bu dünyada cismən ölümlü, ruhən ölümsüz insanlar var olduğu üçün yaşamaq gözəldir" fikrini dönə-dönə təkrar edən sənət layihəsi ümumilikdə Nizami irsinin teatr sənəti vasitəsilə retranslyasiyası məqsədi daşıyır. Layihənin digər bir məqsədi də əsasən bu məqam idi: Nizaminin əbədiyaşar irsindən yola çıxaraq yeni fikir axını yaratmaq. Bu mənada biz Nizami əsərindən bəhrələnməklə yox, onun ruhundan yola çıxmaqla özünə yeni cığır açmağa çalışan yaradıcı təşəbbüs gördük.

Bütün mürəkkəb mizanlar, dolanbac yollarla gələn sadə həqiqətlər, hər bir xırda detalınadək düşünülmüş quruluş elementləri bizə, az da olsa, Nizami fəlsəfəsini müasir sənət düşüncəsi, yeni səhnə meyar və axtarışları müstəvisində göstərmək üçün idi. Əslində, bu, lazımlı yanaşma və nisbətən ertələnmiş forma tətbiqinin aktivləşdirilməsi baxımından da uğurlu cəhd kimi dəyərləndirilə bilər.

İlqar Fəhminin Nizami Gəncəvinin "İskəndərnamə" poemasının motivləri əsasında tərtib etdiyi bu yeni "namə" məlum poemanın xəyali davamıdır. Yəni həm İskəndər Zülqərneyn, böyük fateh, gənc və dəliqanlı hökmdar, həm də iddiasız bizlər "Ölməyib, o günü də görsəydim"ə gedib, "nə edərdim?" sualı ilə imtahan olunduq.

Alternativ istiqamət seçilərkən hadisələr dirilik suyunu İskəndərə gətirmək üçün yola çıxdığı halda onu içib qeybə çəkilən Xızır ilə başlayır. Yəni konflikt onun üzərində qurulur. Poemadan fərqli olaraq, tamaşada Makedoniyalı İskəndər dirilik suyunu Xızırın qanı vasitəsilə içir və beləcə, özünün əbədi yaşamaq haqqını yenə qanla alır.

Hadisələrin gedişatında 33 yaşlı İskəndərdən 99 yaşlı İskəndərin dövrünə keçirik. Gənc, məmnun, güclü hökmdar artıq 66 ildir ki, Allahın verdiyi hər gündə ya kiminsə edam əmrini verir, ya da onu lənətləyən, üzünü görmədiyi, heç tanımadığı düşmənlərindən də əbədi yaşamaq haqqının intiqamını alır. Düşmənlərini kənarda axtardıqca əzəmətli sarayda, dəbdəbəli taxt-tacında yerinə qor tökülmüş kimi yaşadıqca yeganə təsəllisi ailəsi – arvadı, oğlu və nəvələri olur. Onların xəyanət etməyəcəyindən o qədər emindir ki, hətta nəvələrini qəsdçiləri sırasında görəndə dəliyə dönür. Edam kötüyünə gedəcək növbəti başların hər gün sığalladığı başlar olması onu heyrətə gətirir. Nəticədə böyük fəlakət yaşanır: İskəndər ailəsinin, ailəsi də onun qatili olur. Hörmüz 66 ildən sonra bu dəfə insan olmaq, insan kimi ölmək üçün yalvaran, fəryad edən İskəndərin dadına yetir və onu azad edir: həm Tanrı olmaq kimi axmaq xülyasından, həm də bezdiyi həyatından...

Qısa təsvirdən də göründüyü kimi, tamaşada hadisələr sürətlə dəyişir. Çoxfunksiyalı konstruksiyalar, əvvəldən dəqiq təyin olunmuş mizanlar, sinxron kütləvi səhnələr, işıq və ona adekvat musiqi həlli ilə daim canlı oyun görürük. Sanki İskəndər ordusunun çaparları səhnədəkilər qarışıq hamımızı önünə alıb nəfəsimiz qaralanadək qovur. Hə, bu qovmaq məsələsi iki və daha artıq başlı olduğundan müzakirəsi və mühakiməsi azaddır...

Mizanların traktovka daxilində işlənməsinə gəlincə, müəyyən dağınıqlıq, sözsüz ki, oldu. Bunu müəyyən mənalarda tamaşadan bir neçə gün öncə zədələnən baş qəhrəmanın hər iki mənada ayağına yazmalı olsaq, gərək onun ümumən oyununa toxunmayaq. Onu da deyim ki, zədəli İskəndərin özü ilə bərabər arabir oyunu da axsatdığı oldu. Ümumən emosional qatda tamaşaçıya nüfuz etmək üçün onunla tək oyuna çalışdı. Bilmirəm niyə, amma mənə elə gəldi ki, Ziya Ağa monotamaşa oynayır və özündən başqa heç kim vecinə deyil. Hərçənd quruluşa görə, orada bir ansambl oyunu var və rejissor mütləq hakimiyyəti heç dünya fatehinə də rəva görməyib. Ümumi götürsək, baş qəhrəman fatehə xas təsir hökmü verə bilmədi. Yenə də deyirəm, bunu bu dəfə aktyorun zədəsinə və onun yaratmış fiziki-psixoloji gərginliyinə, gənclik emosiyasına vermək olar. İnsafən, Ziya səhnədə görünən və tamaşaçının görmək istədiyi aktyorlardandır.

Ondan fərqli olaraq Nurəddin Mehdixanlı bizlərə tam fərqli bir obraz göstərdi. Mizandan bir addım belə çıxmayan, rejissor-aktyor-tərəf-müqabil üçbucağında tarazlığı saxlayan oyunu var idi. Plastikası, hərəkətə uyğun tembri, qarşı tərəflə rahat mübadiləsi hakim idi.

Elşən Rüstəmov, Şövqi Hüseynov, Rüstəm Rüstəmov obrazlarının ifadə imkanlarını və icazə verilən hərəkət istiqamətlərini tam təyin etmişdilər. Elşən Rüstəmovun vəziyyətə uyğun tembri və mexanikası, Rüstəm Rüstəmovun oyuna qatdığı həyəcan və cəldlik işlərinin öhdəsindən gəldiklərini göstərdi. Şövqi Hüseynovun qəhrəmanının bəraətindəki inandırıcılığı, hiyləgərliyinə haqq qazandırması və öz əbədiyyət haqqını vermək üçün gizli-açıq oyunları onun dəyişkən oyun texnikasında yaxşı düşünülmüş həll idi.

İlqar Cahangir və Kəmalə Müzəffərin potensiallarına uyğun rejissor təlimatları verilməsinə rəğmən, daha doğrusu, onlar üçün geniş şərait sunulmasına baxmayaraq, bizə nə şahzadə kimi qocalıb məbədə çəkilən oğulun, nə də cavan ərinə baxa-baxa gül kimi solan qadının faciəsini görmək nəsib olmadı. Hərçənd İlqar Cahangirdən daha inandırıcı, təsirli nümayiş gözləmək olardı. Kəmalə Müzəffərin son aktı – xəncərin İskəndərin kürəyinə saplama səhnəsi də ani ötüşdüyündən nə qadın, nə də tamaşaçı intiqamın həzzini yaşaya bilmədi...

Vüsal Mustafayev, Elçin Əfəndi və Sənan Kazımlı üçlüyünün də oyunu göründü, tamaşaçının yaddaşına köçdü. Baba-nəvə – Ziya-Sənan toqquşmasında tərəflər, əslində, göz tərəzisində tam bərabər dayandılar.

Tamaşanın kütləvi səhnələri həm templi, həm də sinxron idi. Xüsusən mühafizəçilərin qılıncla rəftarı və ani çevrilmələrdə, hədəflərin dəyişməsindəki dinamikaları, səhnənin bütün istiqamətlərinin plandan plana işlədilməsi oyunun ümumi atmosferinə yaxşı təsir etdi.

**Həmidə Nizamiqızı**

№95 (1872)
24 dekabr 2021
www.medeniyyet.az

# Həsən Seyidbəylinin xatirəsinə həsr edilmiş fotosərgi

Azərbaycan Dövlət Film Fondunda Xalq artisti, görkəmli kinorejissor, tanınmış yazıçı və dramaturq, ictimai xadim Həsən Seyidbəylinin (1920-1980) anadan olmasının 101-ci ildönümü (22 dekabr) münasibətilə fotosərgi təşkil olunub.



Dövlət Film Fondundan bildirilib ki, sərginin açılışından sonra Həsən Seyidbəylinin 100 illik yubileyinə ithaf olunmuş "Bizim Həsən müəllim" sənədli filmi nümayiş etdirilib. Ekran əsəri ötən il "Azərbaycanfilm" Kinostudiyasında (rejissor Yavər Rzayev) istehsal olunub.

Sərgidə yer alan nadir fotosənədlər görkəmli sənətkarın şəxsi arxiv fonduna məxsusdur və ilk dəfə nümayiş etdirilir.

Həsən Seyidbəyli "Telefonçu qız", "Möcüzələr adası", "Sən niyə susursan", "Bizim Cəbiş müəllim", "O qızı tapın", "Nəsimi", "Xoşbəxtlik qayğıları" və s. bədii filmlərin quruluşçu rejissoru, "Uzaq sahillərdə" (İ.Qasımovla birgə), "Cəbhədən cəbhəyə" romanlarının, pyeslərin müəllifidir.

# Nəsir İmanquliyevin 110 illiyi münasibətilə

Dekabrın 22-də Azərbaycan mətbuat tarixində xüsusi yeri olan Əməkdar jurnalist, ustad redaktor, pedaqoq Nəsir İmanquliyevin (1911-1998) anadan olmasının 110-cu ildönümü münasibətilə Milli Kitabxananın əməkdaşları tərəfindən virtual sərgi hazırlanıb.



Virtual sərgidə Nəsir İmanquliyev haqqında rəsmi sənəd, mükafatları, haqqında yazılan kitab və məqalələr nümayiş olunur.

"Nəsir İmanquliyev – 110" virtual sərgisi ilə kitabxananın saytında tanış olmaq olar.

Diqqətə çatdırılır ki, professor Nəsir İmanquliyev Azərbaycanda jurnalistikanın təməlini qoyan və onu inkişaf etdirən Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtlı, Ömər Faiq Nemanzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Mirzə Cəlil, Üzeyir Hacıbəyli kimi klassiklərimizin ənənələrini davam etdirərək, cəmiyyət həyatının ən müxtəlif sahələrini əks etdirən yazıları ilə mətbuat tariximizə layiqli töhfələr verib. Nəsir İmanquliyev "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 ilə yaxın baş redaktoru, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru olub, Azərbaycan jurnalistlərinin böyük bir nəslinin formalaşmasında mühüm rol oynayıb.

# "Dağ vüqarlı sənətkar"

## Seyfəddin Dağlının 100 illiyi qeyd olundu

Dekabrın 21-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində görkəmli şair, nasir, dramaturq, ictimai xadim Seyfəddin Dağlının (1921-1983) 100 illik yubileyinə həsr olunmuş "Dağ vüqarlı sənətkar" adlı ədəbi-bədii, musiqili gecə keçirilib.

Tədbir "Könüllülər" Kitabxana İctimai Birliyi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Cəfər Cabbarlının Ev-Muzeyinin təşkilatçılığı, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC və DTX Mədəniyyət Mərkəzinin dəstəyi ilə reallaşdı.

Gecə dramaturqun həyat və yaradıcılığına həsr olunmuş videoçarxın nümayişi ilə başlandı. Videoçarxda yer alan fotolar Seyfəddin Dağlının həyat və yaradıcılıq yolunu sanki bir film olaraq təqdim edirdi.

Daha sonra səhnəyə babasının adını daşıyan kiçik Seyfəddin çıxaraq şairin şeirini səsləndirdi.

Filologiya üzrə fəlsəfə doktoru Firudin Qurbansoy çıxış edərək Seyfəddin Dağlı ilə bağlı xatirələrini bölüşdü: "Seyfəddin Dağlı zahirən ciddi, daxilən mülayim, zarafatcıl, yumor hissi ilə silahlanmış və qəlbi Xızı dağlarının havasıtək təmiz, qaynar bulaqlarının suyu kimi şəffaf, gənc ikən qocaman təsiri bağışlayırdı. O, yazdığı əsərlərdə hər zaman bizimlədir".

Əməkdar artist Azad Şükürov tələbəlik illərində Seyfəddin Dağlının əsərlərində rol aldığı tamaşalar və dramaturqla tanışlığı ilə bağlı xatirələri dilə gətirdi.



Qeyd etdi ki, onun pyesləri əsasında səhnələşdirilən tamaşalar böyük bir aktyor ordusunun yetişib kamilləşməsinə təkan verib: "Ədibin qələmindən çıxan əsərlər bu gün də aktuallığını qoruyub saxlayır və sevilə-sevilə oxunur. Seyfəddin Dağlının pyesləri Azərbaycan teatrında dəfələrlə tamaşaya qoyulub".

Əməkdar incəsənət xadimi Şəfəq Əlixanlı çıxışında bildirdi ki, Seyfəddin Dağlının ən məhsuldar və maraqlı fəaliyyəti Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi ilə bağlı olub. 1956-1959-cu illərdə o, əvvəlcə Azərbaycan Radiosunda baş redaktor, sonra isə Bakı Telestudiyasının direktoru kimi çalışıb. 1957-1959-cu illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsi sədrinin müavini vəzifəsini şərəflə yerinə yetirib: "Seyfəddin Dağlı bu vəzifədə novatorluğu ilə tanındı, yeni bacarıqlı, savadlı kadrların yetişməsinə öz töhfəsini verdi. Özünün yaradıcılıq məktəbi yaratdı. Azərbaycan ədəbi dilinin inkişaf etdirilməsi isə onun əsas vəzifəsi oldu. Ədib neçə-neçə televiziya və radio verilişinə, gözəl tamaşalara efir ömrü verdi. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin" tamaşalarının adı çəkiləndə üzlərdə istər-istəməz bir təbəssüm yaranır".

Gecədə həmçinin Xalq artisti Adil Bağırovun rəhbərliyində "Xatirə" xalq çalğı alətləri ansamblının müşayiəti ilə şairin sözlərinə yazılmış mahnılar səsləndi. Xalq artisti Gülyanaq Məmmədova Tofiq Quliyevin "Darıxma", dillər əzbərinə çevrilən "Çay" mahnısını müğənni Vüsal Hacıyev səsləndirdi. Əməkdar artist Rəşad İlyasov, xanəndə Hüseyn Məlikovun ifaları da gecəyə rəng qatdı.

Toğrul Rza, Zülfiyyə Məmmədova Seyfəddin Dağlı qələmindən çıxan şeir və hekayələrdən nümunələr səsləndirdilər. Tədbir boyu "Adı sənin, dadı mənim", "Sevdagül və Şarlotta" televiziya tamaşalarından parçalar, "Mozalan" kinojurnalından nömrələr nümayiş olundu.

Seyfəddin Əliağa oğlu Abbasov (Dağlı) 1921-ci il avqustun 27-də Xızıda dünyaya göz açıb. Uşaq ikən bədii yaradıcılığa böyük həvəs göstərir. Ailəsi ilə birlikdə Bakıya köçən Seyfəddin orta məktəbi bitirdikdən sonra Nəriman Nərimanov adına Sənaye Texnikumunun Kimya fakültəsindən məzun olur.

Tələbəlik illərindən bədii yaradıcılıqla məşğul olan Seyfəddin Dağlı sonralar ədəbi ictimaiyyətin diqqətini cəlb edən bir-birindən maraqlı əsərlər qələmə alır. Ədib "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır" və s. pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və digər kitabları ilə oxucuların rəğbətini qazanıb. O, 1959-1976-cı illərdə "Kirpi" jurnalının baş redaktoru işləyib.

Azərbaycan ədəbiyyat və mətbuatında iz qoyan Seyfəddin Dağlı 1983-cü il yanvarın 18-də dünyasını dəyişib.

**Lalə Azəri**

# Bəstəkar Nailə Mirməmmədli yad edilib

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında Əməkdar incəsənət xadimi, bəstəkar və pedaqoq Nailə Mirməmmədlinin (1961-2021) 60 illik yubileyinə həsr olunmuş "Qəlbin nəğməsi" adlı xatirə gecəsi keçirilib.

Tədbirdə Xəzər rayon ictimaiyyətinin nümayəndələri, Nailə Mirməmmədlinin ailə üzvləri, yaxın dostları iştirak ediblər.

Əvvəlcə Nailə Mirməmmədli haqqında videoçarx nümayiş olunub.

Tədbirin aparıcısı Könül Muxtarova bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verib. Bildirib ki, Nailə Mirməmmədli musiqi sənətimizdə özünəməxsus iz qoymuş sənətkarlardandır. Bəstəkar populyar mahnıların müəllifi olmaqla yanaşı, xalq mahnılarını xor üçün işləyib, filmlərə musiqi yazıb.





Xatirə gecəsində Xalq artistləri Mələkxanım Əyyubova, Gülyaz Məmmədova, Əməkdar artistlər Bəyimxanım Vəliyeva, Babək Niftəliyev, "Səs Azərbaycan" layihəsinin qalibi Vlada Axundova, müğənnilər Leyla Ramazanlı və Niyam Salaminin ifaları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

Kimyaçı-alim, dosent, bəstəkarın "Qayıt ömrümə" mahnısının sözlərinin müəllifi Gültəkin Ələmdarqızı Nailə Mirməmmədli haqqında xatirələrini tamaşaçılarla bölüşüb.

Çıxışlarda vurğulanıb ki, qəlbinin musiqisi ilə könülləri riqqətə gətirən bəstəkarın xatirəsi ürəklərdə yaşayacaq.

# Sənətşünas alim, unudulmaz pedaqoq

Azərbaycan sənətşünaslıq məktəbinin tanınmış simalarından biri də odur. O, XX əsr Azərbaycan heykəltəraşlıq sənətinin tədqiqatçısı kimi adını incəsənət tariximizə yazıb. Pedaqoji fəaliyyəti zamanı sənətşünas mütəxəssislər yetişdirib.



Sənətşünaslıq doktoru, professor Cəmilə Həsən qızı Novruzova (9.4.1930 – 4.05.2011) Naxçıvan torpağında dünyaya göz açmışdı. A.S.Puşkin adına Leninqrad Dövlət Universitetinə daxil olmuş, sonra təhsilini Bakıda davam etdirmiş və Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Sənətşünaslıq fakültəsini bitirmişdi (1952). 1962-ci ildə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda böyük elmi işçi vəzifəsində işləməyə başlamış, namizədlik (1956), daha sonra doktorluq (1977) dissertasiyalarını uğurla müdafiə etmişdi. C.Novruzova uzun müddət səmərəli pedaqoji fəaliyyət göstərmiş, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında tələbələrə mühazirələr oxumuşdu. 1990-cı ildə professor elmi adına layiq görülmüşdü.

Professor C.Novruzovanın elmi fəaliyyət dairəsini XX əsr Azərbaycan heykəltəraşlıq sənətinin yaranması və inkişaf xüsusiyyətləri, heykəltəraşlıq problemləri və tanınmış heykəltəraşların yaradıcılığının araşdırılması əhatə edirdi. Sənətşünas alim Azərbaycan heykəltəraşlıq məktəbinin məşhur simaları P.Sabsay, F.Əbdürrəhmanov, C.Qaryağdı, M.Mirqasımov, E.Hüseynova, T.Məmmədov, Ö.Eldarov, F.Bakıxanov və başqalarının həyat və yaradıcılığına həsr olunmuş 10 monoqrafiyanın, 200-ə qədər elmi məqalənin müəllifidir. Bu sırada "Sovet Azərbaycanının monumental heykəltəraşlığı" (rus dilində, 1960), "Heykəltəraşlıq haqqında" (Mürsəl Nəcəfovla birlikdə, 1960), "Azərbaycan sovet incəsənəti" (həmmüəllif, rus dilində, Moskva, 1970), "Tokay Məmmədov" (rus dilində, 1973), "Azərbaycan sovet heykəltəraşlığı" (1973), "Fuad Əbdürrəhmanov" (1974), "Azərbaycan SSR təsviri incəsənəti" (N.Həbibovla birlikdə, 1978), "Heykəltəraşlıq" (rus dilində, 1983), "Fuad Əbdürrəhmanov" (rus dilində, 1988), "İbrahim Zeynalov" (1998) və başqa kitabları qeyd etmək olar. O həmçinin "SSRİ xalqları incəsənəti tarixi" çoxcildliyinin hazırlanmasında iştirak edib.

2000-ci illərdə Dövlət Rəssamlıq Akademiyasında oxuduğum zaman C.Novruzovanın mühazirə və seminarlarını hörmətlə xatırlayıram. Onun təhsilimi bitirdikdən sonra fəaliyyətimi Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində davam etdirməyimi tövsiyə etməsi də xoş xatirələr olaraq yaddaşımdadır. C.Novruzova tələbələrinin qayğısına həssaslıqla yanaşırdı.

Keçən il professor C.Novruzovanın 90 illik yubileyi idi, bu il isə sənətşünas alimin dünyasını dəyişməsindən 10 il ötdü. Vaxt, zaman bir göz qırpımında gəlib keçir. İllər sürətlə bir-birini əvəzləyir. Dəyişməyən və dəyərini itirməyən yaxşı əməllər, özündən sonra miras qoyub getdiyi mənəvi irsdir. C.Novruzovanın elmi irsi də həmişə yaşayacaq, xatırlanacaq...



**Əsəd Quliyev**
**sənətşünas, AMEA-nın dissertantı**

# Osmanlı dövründə Marağa və Soyuqbulaq bölgələri




AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Beynəlxalq əlaqələr şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Gülər Qafqazlının "Osmanlı hakimiyyəti dövründə Marağa və Soyuqbulaq bölgələri (XVIII əsrin 20-ci illəri)" kitabı çapdan çıxıb.

İnstitutdan bildirilib ki, monoqrafiyada Osmanlı arxiv sənədləri cəlb edilməklə, XVIII əsrin 20-ci illərində Osmanlı hakimiyyəti dövründə Azərbaycanın tarixi əraziləri olan Marağa və Soyuqbulaq bölgələrinin sosial-iqtisadi vəziyyəti, o cümlədən şəhər həyatı və kənd təsərrüfatının inkişaf səviyyəsi, əhalinin dini və etnik tərkibi, demoqrafik durumu, qismən də bölgənin toponimikası və onomastikası ilk dəfə olaraq kompleks şəkildə tədqiq edilib.

# Sufi şairi Şahnigar xanım Rəncur haqqında kitab

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Tarixi etnoqrafiya şöbəsinin əməkdaşları İsmayıl Umudlu və Bəhmən Əliyevin həmmüəllif olduqları "Şahnigar xanım Rəncur" kitabı işıq üzü görüb.

Müəlliflər kitabda şairin əsərlərinin bəzilərini yenidən toplayıb dəqiqləşdirib, onun yaxınlarına məxsus qəbir daşlarının üzərindən Şahnigar xanımın qələmindən çıxmış epitafiyaları, "maddeyi-tarix"ləri oxuyaraq oxuculara təqdim ediblər.

Bir neçə il əvvəl Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun Qazax-Ağstafa etnoqrafik ekspedisiyasının üzvləri Qazax rayonunun Ağköynək kəndində XIX əsr sufi şairi Şahnigar xanım Rəncurun məzarının yerini tapıb, məzar daşının üzərindəki epiqrafik yazıları, epitafiyaları oxuyublar. Şahnigar xanımın qəbri hündür təpənin üstündəki məqbərə kompleksinin daxilində yerləşir, qəbrin üstündə "Bu məzar mərhum və bağışlanmış "Rəncur" təxəllüslü Şahnigar xanım Kazım ağa qızı Qiyasbəyovanındır" sözləri yazılıb. Məzar daşının üstündəki türk, ərəb, fars dillərində qarışıq epitafiyada deyilir: "İlahi, sən məni övliyalardan, ənbiyalardan ayırma. Sənin mərhəmətin ümman dəryasıdır. O dəryadan mənə bir qətrə versən bəsimdir".

Qeyd edək ki, sovet dövründə baş verən qanlı hadisələr, repressiyalar, əlifba dəyişiklikləri nəticəsində nəsillər arasında əlaqələr qırıldığından sonrakı nəsillərə şairin qəbrinin harada olması məlum deyildi.

Şahnigar xanım Rəncurun yaradıcılığına Firidun bəy Köçərli, Hüseyn Əfəndi Qayıbov, Mirizadə Mustafa Fəxrəddin Ağabalı yüksək qiymət veriblər. Şahnigar xanım Rəncur çoxsaylı qəzəl, minacat, rübai, müxəmməs və müsəddəs, saqinamələr yazıb, lakin onun əsərlərinin az hissəsi ədəbiyyat aləminə məlumdur.

Kitabda qeyd olunur ki, XIX əsrin ikinci yarısında Qazax mahalında ənənəvi və yeni üsullu məktəblərdən başqa, evdə təhsilin yayılması qızların savadlanması baxımından mühüm əhəmiyyət daşıyıb.

Azərbaycan və Anadoluda nəqşibəndi təriqətinin öndəri olan Mirhəmzə Nigarinin tanınmış müridlərindən olan təsəvvüf şairi Şahnigar xanım Kazım ağa qızının yaşadığı dövrdə Qazax qəzasında mədəni mühit, XIX əsrin ikinci yarısında Qazaxda qadın şairlərin həyat və yaradıcılığı kitabda əksini tapır. Kitabda həmçinin XIX əsrin ikinci yarısında Azərbaycan və Anadolu arasında etnomədəni əlaqələr araşdırılır, bu əlaqələrdə Şahnigar xanımın rolu təhlil edilir.

Şahnigar xanım şeirlərini "xəstə, narahat, dərdli, rəncidə" mənasını verən "Rəncur" (Rəncuri) təxəllüsü ilə yazıb. O, doğma Azərbaycan dili ilə yanaşı, fars və ərəb dillərini də dərindən bilib.

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu Elmi şurasının qərarı ilə çap olunmuş kitabın elmi redaktoru professor Şirin Bünyadova, rəyçiləri dosent Əsəd Əliyev və tarix üzrə fəlsəfə doktoru Təranə Quluzadədir.

# Sənətlə döyünən ürək

Respublikanın Xalq artisti, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar Tofiq Əhməd ağa oğlu Bakıxanovun layiq görüldüyü təltiflər onun zəngin yaradıcılığına verilən yüksək qiymətdir. Görkəmli bəstəkar sənətə gəldiyi gündən durmadan çalışıb, yazıb-yaradıb, hər zaman yaradıcılıq axtarışında olub və Azərbaycan musiqi tarixinə, mədəniyyətinə mühüm töhfələr vermişdir.



Professional bəstəkarlıq məktəbimizin layiqli davamçılarından olan Tofiq Bakıxanov Azərbaycanın ən nüfuzlu, tanınmış nəsillərindən biri – Bakıxanovların nümayəndəsi olaraq həmin nəslin ənənələrinə sadiq qalmış, ləyaqətlə bu estafeti davam etdirmiş, tutduğu yolda vicdanla, məsuliyyətlə çalışmışdır. Geniş yaradıcılıq diapazonuna malik bəstəkar milli ənənələrə böyük məsuliyyət və ciddiliklə yanaşaraq musiqi sənətinə dəyərli əsərlər bəxş etmişdir. Hər bir əsərində yüksək peşəkarlıq və orijinal yanaşma tərzi nümayiş etdirən sənətkar operadan başqa musiqinin bütün janrlarında əsərlər yazmış, musiqili səhnə əsərləri – baletlər, musiqili komediyalar, simfonik əsərlər, xor əsərləri, instrumental əsərlər, kamera-vokal əsərləri və s. bəstələmişdir. T.Bakıxanov yaradıcılığında klassik musiqi milli ənənələr əsasında inkişaf olunmuş, bəstəkar milli musiqi xəzinəsindən bacarıqla bəhrələnərək, əsərlərində xalq musiqisi ilə müasir bəstəkarlıq yazı texnikasının vəhdətini yaratmışdır.

Bilirik ki, hər bir sənətkarın yetişməsi üçün əlverişli şərait lazımdır. Tofiq müəllimin Azərbaycan musiqi tarixində özünəməxsus yer qazanması da bir təsadüf olmamışdır. O özü bu barədə deyir: "Mən bəstəkar kimi formalaşmağımı, sənətdə bu yerə yüksəlməyimi üç insana borcluyam: atam Əhməd Ağa Bakıxanov, dahi Üzeyir Hacıbəyli və Qara Qarayevə... Evimizə çox musiqiçilər, bəstəkarlar, xüsusilə də dahi Üzeyir bəy tez-tez gəlib-gedirdi və mən onlarla hər zaman təmasda olurdum. Bizim evimizi konservatoriyanın bir şöbəsi adlandırırdılar...".

Uşaqlıqdan evdə hər zaman musiqi sədaları eşidən Tofiq müəllim atası – tanınmış tarzən, muğam bilicisi Əhməd ağa Bakıxanovdan muğamların bütün incəliklərinədək öyrənmiş, bu da onun yaradıcılığı üçün əsaslı bünövrə olmuşdur. Dövrün ən görkəmli simaları ilə hər zaman əlaqədə olan Tofiq Bakıxanovun konservatoriyada Qara Qarayevin sinfində təhsil alması isə onun dünyagörüşünün, yaradıcılıq üslubunun formalaşmasına səbəb olmuşdur.

Bir sıra ilklərə imza atan Tofiq Bakıxanov, həmçinin virtuoz skripka ifaçısı kimi 1950-ci illərdən etibarən Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki trioda fəaliyyət göstərmiş, F.Əmirov, S.Ələsgərov, C.Cahangirov kimi bəstəkarlarımızın bir sıra əsərlərinin ilk məharətli ifaçısı olmuşdur.

Tofiq müəllim daim yaradıcılıq axtarışında olmuş, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün sənət yolunda inamlı addımlarla irəliləmiş, gərgin əmək sərf etmişdir. Musiqi mədəniyyəti tariximizdə yenilikçi bəstəkar mövqeyindən çıxış edən Tofiq Bakıxanov Azərbaycanda viola, violonçel, fleyta üçün sonata, eyni zamanda qoboy, klarnet, truba, fleyta, violonçel alətləri üçün konsert janrına ilk dəfə müraciət etmiş, ilk birpərdəli baletin yaradıcısı olmuşdur. Bəstələdiyi üç balet ("Xəzər balladası", "Şərq poeması", "Xeyir və Şər"), üç musiqili komediya ("Altı qızın biri pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir"), tar və müxtəlif alətlər ilə simfonik orkestr üçün 26 konsert, 5 simfonik muğam, 8 simfoniya, 6 simfonik poema, kamera musiqisi sahəsində 26 sonata, müxtəlif tərkibli ansambllar üçün əsərlər, 9 fuqa, 5 prelüd, silsilə uşaq pyesləri, 120-dən artıq mahnı və romans bəstəkarın məhsuldar və çoxşaxəli yaradıcılığından xəbər verir.

Tofiq Bakıxanov öz əsərləri ilə Azərbaycan musiqisini xaricdə də layiqincə təmsil etmiş, dəfələrlə Fransa, İngiltərə, Almaniya, Rumıniya, Şotlandiya, İsveç, Türkiyə, İran və s. dünyanın bir çox ölkəsində beynəlxalq musiqi festivallarında, müsabiqələrdə iştirak etmiş, onun əsərlərindən ibarət konsertlər (60-dan çox müəllif konserti) təşkil olunmuşdur. Bəstəkarın hələ gənc ikən Fransada nümayiş olunan "Xəzər balladası" baletinin müvəffəqiyyəti isə xüsusilə qeyd olunmalıdır. O zaman təkcə SSRİ-də yox, Fransada da dərc olunan bir sıra nüfuzlu qəzetlər bu əsərin uğurlu taleyindən yazmışdı. Onun bu nailiyyətdən sonra həvəslənərək qələmə aldığı "Şərq poeması" və "Xeyir və Şər" baletlərinin də uğurlu səhnə həyatı olmuşdur.

Musiqinin ən mühüm janrlarından biri hesab edilən simfonik sahədə də bütün yaradıcılığı boyu yazıb-yaradan Tofiq Bakıxanovun simfoniyaları, simfonik muğamları, simfonik poemaları, uvertüraları, süitaları və s. Azərbaycan musiqisinin qiymətli əsərləri sırasına daxildir. Azərbaycan və eləcə də dünya musiqi tarixində unikal janr olan simfonik muğam janrına müraciət edən bəstəkar "Nəva", "Humayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamları ilə musiqi xəzinəmizi zənginləşdirmişdir.

Kamera musiqisi bəstəkarın yaradıcılığının ən mühüm sahəsini təşkil edir desək, yanılmarıq. Təsadüfi deyil ki, Azərbaycan musiqisində kamera əsərləri haqqında danışdığımız zaman ilk yada düşən bəstəkarlardan biri məhz Tofiq Bakıxanov olur. Onun bu sahədə yazdığı çoxsaylı əsərləri ifaçılıq təcrübəsində və tədris repertuarında da əhəmiyyətli yer tutur.

Tofiq Bakıxanovun yaradıcılığında Türkiyə və türk mövzusu xüsusi yer tutur. O, həm kamera, həm də simfonik orkestr üçün bəstələdiyi əsərlərində qardaş ölkəyə və türk xalqlarına olan məhəbbətini təcəssüm etdirmişdir. "Türk rapsodiyası", "Kuzey-Kıbrıs süitası", 6 nömrəli "Türk simfoniyası", "Türk eskizləri", "Şərqdən gələn sədalar" simfoniettaları, skripka ilə simli orkestr üçün 7 nömrəli "Türk konserti", Mustafa Kamal Atatürkə həsr olunmuş "Dünya durduqca yaşa" və s. əsərlər bunun bariz nümunəsidir.

Bəstəkar doğma vətənimizə, onun gözəlliklərinə, tarixinə həsr olunmuş çoxsaylı kamera-vokal əsərlərin də müəllifidir. Onun "Azərbaycan bayrağı", "Gözəlliklər məskəni", "Vətən nəğməsi", "Azərbaycan", "Qobustan qayaları", "Qarabağ", "Azərbaycan gölləri", "Nurlu Naxçıvan" və s. kimi mahnıları Vətən sevgisindən xəbər verir. Bəstəkarın müxtəlif mövzuları əhatə edən mahnı və romansları vaxtaşırı məcmuə şəklində çap olunmuş, məşhur müğənnilərin ifasında tez-tez televiziya və radioda səsləndirilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, Tofiq Bakıxanov ilk dəfə Abbasquluağa Bakıxanovun yaradıcılığına müraciət edərək romanslar yazmışdır.

Bəstəkarın əsərləri bir çox virtuoz ifaçılar tərəfindən ifa olunmuş, lentə yazılmış, radionun "qızıl fond"una daxil edilmişdir. Tez-tez efirlərdə səsləndirilən bu musiqilər öz təravətini itirməmiş, hər zaman dinləyicilərin marağına səbəb olmuşdur.

Bəstəkarlıqla yanaşı musiqi haqqında düşüncə və fikirlərini kitablarda da əks etdirən Tofiq müəllim musiqi tədqiqatçısı kimi dəyərli əsərlərin müəllifidir. "Məmməd Nəsirbəyov", "Ərtoğrol Cavid-100" (bəstəkar Nazim Quliyevlə birlikdə), "Musiqili ömrüm", "Tofiq Bakıxanov. Musiqi düşüncələri" (2 cilddə) və s. kitablar buna nümunədir.

Tofiq Bakıxanov təkcə görkəmli bəstəkar və ifaçı deyil, həm də yüksək insani keyfiyyətlərə malik gözəl pedaqoqdur. Uzun illər öz bilik və təcrübəsini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (Bakı Musiqi Akademiyası) və A.Zeynallı adına Musiqi Texnikumunda (Musiqi Kolleci) tələbələrlə bölüşən Tofiq Bakıxanov, səmimi və mehriban xarakteri, həssaslığı və məsuliyyəti ilə insanların sevgisini, dərin hörmətini qazanmışdır. Konservatoriyada uzun müddət dekan vəzifəsində də çalışmış Tofiq müəllim bir çox konsertlərin, tədbirlərin təşkil olunmasında da yaxından iştirak etmişdir. Hər zaman gənclərə yol açan, sənət yolunda onların maraqlarının müdafiəçisi olan Tofiq Bakıxanov kimliyindən asılı olmayaraq ondan kömək istəyən hər bir musiqiçinin əlindən tutmuş, yol göstərmişdir.

Tofiq Bakıxanov yaradıcılığı musiqişünaslar, tədqiqatçılar tərəfindən araşdırılmış, onun yaradıcılığının müxtəlif sahələri tədqiqatlara cəlb olunmuş, monoqrafiyalar, dissertasiya işləri, elmi məqalələr ərsəyə gəlmiş, haqqında televiziya filmi çəkilmişdir. Bəstəkarın yubileyləri Bakıda, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun sərəncamları ilə yüksək səviyyədə qeyd olunmuşdur.

Bəstəkar 91 yaşını geridə qoysa da, yaradıcılıq enerjisi, yazıb-yaratmaq həvəsi, çalışmaq eşqi elə əvvəlkitək qaynayır. Biz də musiqi mədəniyyətimizin qocaman sənətkarı Tofiq Bakıxanova möhkəm cansağlığı və yeni əsərləri ilə sənətsevərləri sevindirməyi arzulayırıq.

**Günay Məmmədova**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru,**
**Bəstəkarlar İttifaqının üzvü**

## Teatr Muzeyində uşaqlar üçün ustad dərsi



Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində Yeni il bayramı ərəfəsində ənənəvi olaraq uşaqlar üçün "Şam ağacını özün bəzə" adlı ustad dərsi təşkil olunub.

Muzeydən bildirilib ki, dərsdə iştirak edən uşaqlar öz əlləri ilə müxtəlif Yeni il atributları – oyuncaqlar, çələnglər və hörüklər hazırlayıblar.

Daha sonra onlar muzey əməkdaşları tərəfindən hazırlanmış əyləncəli intellektual oyunlarda iştirak ediblər.

Sonda iştirakçılara muzey tərəfindən hədiyyələr təqdim olunub.

Ustad dərsi COVİD-19 pandemiyası ilə əlaqədar məhdud sayda auditoriya ilə keçirilib, müvafiq karantin qaydalarına əməl edilib.

## Məktəblərdə Aşıq Ələsgərin yubileyinə həsr olunmuş silsilə tədbirlər

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, böyük söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar ölkə başçısının sərəncamına uyğun olaraq paytaxt məktəblərində də silsilə tədbirlər keçirilir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, ümumi təhsil müəssisələrində bu mövzuda açıq dərslər, ədəbi-bədii gecələr, müsabiqə və yarışlar təşkil edilir. Bundan başqa, məktəb kitabxanalarında Aşıq Ələsgər irsinin təbliği və əsərlərinin müzakirəsi istiqamətində diskussiyalar təşkil edilib.



Həmçinin ümumi təhsil müəssisələrində ustad sənətkarın 200 illik yubileyinə həsr edilmiş rəsm sərgiləri nümayiş olunur, divar qəzeti və bülletenlər hazırlanır. "Aşıq Ələsgər və Azərbaycan folkloru" mövzusunda şeir müsabiqəsi təşkil olunub. Tədbirlərdə Azərbaycan aşıq poeziyasını zirvələrə yüksəltmiş el sənətkarı haqqında şagirdlərə geniş məlumat verilir, onun 200 illik yubileyinin bütün türk dünyası üçün əlamətdar olduğu bildirilir.

Şagirdlər tərəfindən Aşıq Ələsgərin şeirlərindən nümunələr səsləndirilir, ədəbi-bədii kompozisiyalar nümayiş etdirilir.

## Xatirə təqvimi 25–28 dekabr

### Azərbaycan

**25 dekabr 1896** – Əməkdar incəsənət xadimi, kino istehsalı təşkilatçısı Teymur Əli oğlu Hüseynov (1896-1973) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında 30-dan çox bədii və sənədli filmin direktoru olub.

**25 dekabr 1906** – Əməkdar incəsənət xadimi, görkəmli kinorejissor, operator Əlisəttar Ələsgər oğlu Atakişiyev (1906 – 7.11.1990) Bakıda anadan olub. "Bir qalanın sirri", "Bizim küçə", "Sehrli xalat", "İstintaq davam edir" filmlərinə quruluş verib, "O olmasın, bu olsun", "Uzaq sahillərdə" filmlərinin operatoru olub.

**25 dekabr 1906** – Filologiya elmləri doktoru, professor Əli Abdulla oğlu Sultanlı (1906-1960) Naxçıvanda doğulub. Antik ədəbiyyat, Azərbaycan dramaturgiyasının tarixinə dair kitabların müəllifidir.

**25 dekabr 1908** – Xalq artisti, teatr rejissoru, aktyor İbrahim (Miribrahim) Tağı oğlu Həmzəyev (1908-1982) Gəncə şəhərində doğulub. 1937-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın direktoru, baş rejissoru olub.

**25 dekabr 1909** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (1909 – 8.9.1982) Şamaxıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, "Səbuhi" filmində M.Ş.Vazeh rolunda çəkilib.

**25 dekabr 1910** – Tarixçi, Azərbaycan EA-nın müxbir üzvü Zülfəli İmaməli oğlu İbrahimov (1910-1972) anadan olub. Tarix İnstitutunun direktoru (1960-1967) işləyib.

**25 dekabr 1923** – Əməkdar incəsənət xadimi, rejissor Hüseyn Musa oğlu Sultanov (1923 – 31.3.1993) Tovuz rayonunda anadan olub. Gəncə Dram, Gənc Tamaşaçılar teatrlarında çalışıb.

**25 dekabr 1931** – Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, tarix elmləri doktoru, professor, Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi Abuzər Alı oğlu Xələfov (1931 – 27.4.2020) Göyçə mahalının (Ermənistan SSR) Cil kəndində doğulub. 50 ildən çox BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri işləyib.

**25 dekabr 1932** – Əməkdar rəssam Kamal Əmirulla oğlu Səmədzadə (1932-2019) Xızı rayonunda anadan olub. Batik sənət növündə əsərlər yaradıb. Azərbaycan Dövlət İncəsənət İnstitutunda, Dövlət Rəssamlıq Akademiyasında müəllim işləyib.

**25 dekabr 1934** – Ədəbiyyatşünas alim, şair-publisist, professor Famil Mehdi (Famil Ağalar oğlu Mehdiyev; 1934 – 18.9.2003) Ağdam rayonunun Sarıhacılı kəndində doğulub.

**25 dekabr 1935** – Xalq yazıçısı Yusif Səmədoğlu (Vəkilov; 1935 – 17.8.1998) anadan olub. "220 saylı otaq", "Qalaktika" hekayələr toplusu, "Qətl günü" romanının müəllifidir. "Yeddi oğul istərəm", "Qətl günü" filmlərinin ssenarisini yazıb. Milli Məclisin deputatı (1995-1998) olub.

**25 dekabr 1941** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (1941 – 16.11.1995) Şəmkir rayonunun Morul kəndində doğulub. Gəncə və Naxçıvan teatrlarında, Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**25 dekabr 1954** – Əməkdar incəsənət xadimi, şair Ağalar Həmzə oğlu Mirzə (1954 – 5.3.2008) Şabran rayonunda doğulub. Azərbaycan Televiziyasında şifahi xalq yaradıcılığına aid verilişlərin müəllifi olub.

**25 dekabr 2016** – Xalq artisti, tanınmış xanəndə Ağaxan Minaxan oğlu Abdullayev (6.2.1950 – 2016) vəfat edib.

**26 dekabr 1910** – Yazıçı Yusif Şirvan (Yusif Əsgər oğlu Əsgərov; 1910-1979) Şamaxıda anadan olub. Əsərləri: "Şəfəq", "Buludlar dağılır", "Məzunlar" (romanlar), "Sularda yanğın", "Ömür çiçəklənir" (povestlər) və s. Rus dilindən tərcümələr edib.

**26 dekabr 1919** – Xalq artisti, rəqqasə Əminə Paşa qızı Dilbazi (1919 – 30.4.2010) Qazaxda anadan olub. "Çinar", "Sevinc" qızlar ansamblını yaradıb. 1949-cu ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyib. "O olmasın, bu olsun" filmində çəkilib. "Ulduz", "Arşın mal alan" (1965) filmlərində rəqslərə quruluş verib.

**26 dekabr 1950** – Xalq artisti Nuriyyə Əliağa qızı Əhmədova (1950 – 10.10.2015) Şəkidə anadan olub. Musiqili Komediya Teatrında çalışıb, "Bəxt üzüyü", "Həm ziyarət, həm ticarət" və s. filmlərdə çəkilib.

**27 dekabr 1897** – Xalq artisti Yuzef Davidoviç Çarski (Tanxelson; 1897-1948) Tiflisdə doğulub. Dövlət Rus Dram Teatrının aktyoru (1928-ci ildən) olub.

**27 dekabr 1912** – Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Talıb qızı Kazımova (1912 – 25.9.1984) anadan olub. "Azərbaycanfilm" Kinostudiyasında bir sıra filmlərin ("Fətəli xan", "Telefonçu qız") 2-ci rejissoru olub, sənədli filmlərə quruluş verib.

**27 dekabr 1932** – Xalq artisti, tanınmış bəstəkar Oqtay Kazımi (Oqtay Məmməd oğlu Kazımov; 1932 – 9.8.2010) Astara şəhərində doğulub. 200-dək mahnının, tamaşalara musiqinin, "Şəhidlər" simfoniyası, "Hophopnamə" oratoriyası və s. əsərlərin müəllifidir.

**27 dekabr 1934** – Xalq rəssamı, heykəltəraş, Dövlət mükafatları laureatı İbrahim İsmayıl oğlu Zeynalov (1934 – 6.3.2008) Bakıda doğulub. İmadəddin Nəsimi (T.Məmmədovla birgə), Şah İsmayıl Xətai (Z.Mehdiyevlə birgə) və b. görkəmli şəxsiyyətlərin abidələrinin həmmüəllifidir. Milli İncəsənət Muzeyinin direktoru işləyib.

**27 dekabr 1938** – Xalq artisti Səfurə Ağabala qızı İbrahimova (1938 – 21.12.2020) Bakıda anadan olub. Milli Dram Teatrında çalışıb. "Sevil", "Arşın mal alan", "Alma almaya bənzər", "Dərviş Parisi partladır", "Qayınana" və s. filmlərdə çəkilib.

**28 dekabr 1918** – Şair, tərcüməçi İbrahim Kəbirli (İbrahim İsmayıl oğlu İbrahimov; 1918-1995) Tərtər rayonunun Kəbirli kəndində anadan olub. Azərbaycan dilindən rus dilinə ədəbi tərcümələr edib. Moskvada "Sovetski pisatel" nəşriyyatında redaktor işləyib.

**28 dekabr 1920** – Əməkdar elm xadimi, filosof, akademik Firudin Qasım oğlu Köçərli (1920 – 3.6.2005) Gədəbəy rayonunun İsalı kəndində doğulub. Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun direktoru (1967-1985) işləyib.

**28 dekabr 1927** – Əməkdar incəsənət xadimi, bəstəkar Nəriman Həbib oğlu Məmmədov (1927 – 6.4.2015) Naxçıvan şəhərində doğulub. Əsərləri: "Şeyx Sənan" baleti, "Hüseyn Cavid" simfoniyası və s.

**28 dekabr 1941** – Tanınmış şair, publisist Şahmar Əkbər oğlu Əkbərzadə (1941 – 30.8.2000) Ağdam rayonunun Çəmənli kəndində doğulub. "Anama layla", "Sevgi borc verilməz", "Haqqa pəncərə" və s. kitabların müəllifidir. "Mədəniyyət" qəzetinin baş redaktoru (1991-2000) olub.

**28 dekabr 1968** – Xalq artisti Mustafa Həşim oğlu Mərdanov (28.2.1894 – 1968) vəfat edib. Akademik Dram Teatrında çalışıb, filmlərdə yaddaqalan obrazlar yaradıb. Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

### Dünya

**25 dekabr 1813** – Alman şairi Fridrix Vilhelm Veber (Friedrich Wilhelm Weber; 1813-1894) anadan olub.

**25 dekabr 1977** – Dünya şöhrətli ingilis aktyoru, rejissor, ssenarist Çarli Çaplin (Charles Spencer Chaplin; 16.4.1889 – 1977) vəfat edib.

**26 dekabr 1891** – Amerika yazıçısı və rəssamı Henri Miller (Henry Valentine Miller; 1891-1980) anadan olub.

**27 dekabr 1901** – Alman aktrisası, müğənni Marlen Ditrix (Marlene Dietrich – Marie Magdalene Dietrich; 1901 – 6.5.1992) anadan olub.

**28 dekabr 1925** – Məşhur rus şairi Sergey Yesenin (3.10.1895 – 1925) dünyasını dəyişib.

**28 dekabr 1945** – Amerika yazıçısı Teodor Drayzer (Theodore Herman Albert Dreiser; 27.8.1871 – 1945) vəfat edib.

**Hazırladı: Vüqar Orxan**

№95 (1872)
24 dekabr 2021
www.medeniyyet.az

# Mədəniyyətlərin inkişaf etməsi üçün qarşılıqlı əlaqələr vacibdir

## MDB-nin əsas mükafatları təqdim olunub

Xəbər verdiyimiz kimi, dekabrın 21-də Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) humanitar sahədə əldə edilən yüksək nailiyyətlərə görə "Birlik ulduzları" və "Debütlər birliyi" mükafatlarının növbəti təqdimatı keçirilib.

Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu (DHƏF) və MDB Humanitar Əməkdaşlıq Şurası tərəfindən təsis olunan mükafatlara bu il Azərbaycandan Xalq artisti, Rusiya Böyük Teatrının solisti Elçin Əzizov ("Birlik ulduzları") və Dövlət İdarəçilik Akademiyasının müşaviri, "Bakı Politoloqlar Klubu"nun rəhbəri Zaur Məmmədov ("Debütlər birliyi") layiq görülüblər.

Mükafatlandırma hibrid formatda təşkil olunub, laureatların bir qismi mərasimə onlayn şəkildə qoşulublar.

DHƏF İdarə Heyətinin sədri, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu laureatları təbrik edərək, bu mükafatın MDB məkanında görkəmli insanları birləşdirdiyini qeyd edib. "DHƏF mükafatının laureatları görkəmli bəstəkarlar, rəssamlar, həyatlarını yaradıcılığa və məkanımızın birləşməsinə həsr etmiş insanlardır. Özünütəcriddə olan hər hansı bir mədəniyyət məhv ola bilər. Mədəniyyət inkişaf etmək üçün digər mədəniyyətlərlə qarşılıqlı əlaqədə olmalı, ünsiyyət qurmalı, təmas etməlidir. Fondumuz bu irsi qoruyub saxlayaraq böyük işlər görür", – deyə P.Bülbüloğlu bildirib.





DHƏF-nin həmsədri, Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy da ölkələr arasında mədəniyyət sahəsində ünsiyyətin vacibliyini vurğulayıb: "Biz çətin bir dövrdə, necə deyərlər, bu gün turbulentlik vəziyyətində yaşayırıq. Bura toplaşanlar bilir ki, mədəniyyət sahəsində münasibətlər daimidir, siyasi birləşmələrdən asılı deyil. Bu, bizim üçün hər şeydən mühümdür".

DHƏF-nin icraçı direktoru Anatoli İksanov diqqətə çatdırıb ki, mərasimə MDB-nin hər ölkəsindən humanitar elmlər, mədəniyyət və incəsənət sahəsində nailiyyətlər qazanmış insanlar qatılıb: "Mənim üçün laureatlardan biri – Elçin Əzizov haqqında ayrıca danışmaq xüsusilə xoşdur. Mən artıq 8 ildir ki, Böyük Teatrda (A.İksanov 2000-2013-cü illərdə Böyük Teatrın direktoru olub – red.) işləmirəm, lakin Elçin Əzizov hələ o vaxt möhtəşəm səsi, heyrətamiz xarakteri ilə fərqlənirdi. Teatrda ona pərəstiş edirlər, sevirlər". A.İksanov bu il MDB-nin əsas mükafatının laureatları sırasında Elçin Əzizovun da yer almasına şad olduğunu bildirib.

Sonra mükafatların təqdimetmə mərasimi olub.

Qeyd edək ki, bu il "Birlik ulduzları" mükafatına 9 ölkədən 13 namizəd irəli sürülüb. Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğludan mükafatı qəbul edən Elçin Əzizov laureat olan həmkarlarını təbrik edib, DHƏF rəhbərliyinə təşəkkürünü bildirib.

Bu il "Birlik ulduzları" mükafatının laureatları arasında şair, ədəbiyyatşünas, Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymenov, Qırğız Respublikası Milli Elmlər Akademiyasının prezidenti Murat Cumatayev, Moldova Milli Elmlər Akademiyasının prezidenti İon Tiqinyanu, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, akademik Anatoli Torkunov və başqaları var.

"Debütlər birliyi" mükafatı humanitar sahədə gənc mütəxəssislərə (35 yaşa qədər) təqdim edilir. Ötən illər ərzində mükafat şairlərə, həkimlərə, müəllimlərə, alimlərə, abidələrin mühafizəsi üzrə mütəxəssislərə, kitab və mütaliə təbliğatçılarına verilib. Bu il mükafat MDB-də Böyük Qələbənin 75-ci ildönümü ili kimi elan edilmiş 2020-ci ilin nəticələrinə görə verilib.

Azərbaycandan mükafata layiq görülən Zaur Məmmədov qeyd edib ki, biz ortaq tariximizi, faşizmə qarşı vuruşan qəhrəmanlarımızı unutmamalıyıq: "Bu mövzu ona görə daha aktualdır ki, MDB məkanında, o cümlədən bizim regionda faşist ideologiyasının nümayəndələrini şöhrətləndirmək cəhdləri müşahidə olunur ki, bu da yolverilməzdir".

Mərasimdə MDB ölkələrinin Gənclər Simfonik Orkestri laureatlar üçün xüsusi konsert proqramı təqdim edib. 2007-ci ildə yaradılan orkestr DHƏF-nin layihələrindən biridir. Kollektivə MDB ölkələrindən olan gənc musiqiçilər, nüfuzlu müsabiqələrin qalibləri daxildir. Bu il kollektiv Rusiyanın Xalq artisti Sergey Skripkanın rəhbərliyi ilə Rusiya Dövlət Simfonik Kinematoqrafiya Orkestri əsasında fəaliyyət göstərir.

## 2022-ci il üçün "MDB-nin mədəniyyət paytaxtı"

2021-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" olan Tacikistanın Düşənbə şəhəri bu estafetini Qırğızıstanın Karakol şəhərinə təhvil verib. Sədrəddin Ayni adına Tacikistan Dövlət Akademik Opera və Balet Teatrında "Düşənbə – MDB-nin mədəniyyət paytaxtı – 2021" ilinin bağlanış mərasimi keçirilib.

Mərasimdə MDB İcraiyyə Komitəsi sədrinin – icraçı katibin müavini Beketjan Jumaxanov, Düşənbə şəhəri sədrinin müavini Amirxon Kurbanzoda il ərzində Düşənbədə keçirilən tədbirlərdən danışıblar.

Sonra Qırğızıstanın İssık-kul vilayətinin Karakol şəhəri 2022-ci ildə "MDB-nin mədəniyyət paytaxtı" elan edilib.

Qırğızıstanın Tacikistandakı Səfirliyinin müşaviri Meder Soorbekov estafetin Karakol şəhərinə keçməsindən məmnun olduğunu bildirib, 2022-ci il ərzində planlaşdırılan layihələrdən danışıb.

Düşənbə "MDB-nin mədəniyyət paytaxtı" missiyasını 2020-ci ildə bu adı daşımış Şımkent (Qazaxıstan) şəhərindən təhvil almışdı. "MDB-nin mədəniyyət paytaxtı" proqramı çərçivəsində Azərbaycanın iki şəhəri – Qəbələ (2013) və Gəncə (2017) də bu adı daşıyıb.

# "Ekspo Dubay" sərgisində məhdudiyyətlər

Dünyanın ən böyük sərgisinə ev sahibi kimi müxtəlif ölkələrdən nümayəndə heyətlərini, eləcə də çoxsaylı turistləri qəbul edən Dubay şəhəri pandemiyanın ciddi fəsadları ilə üzləşib.



"Ekspo Dubay – 2020" sərgisində COVİD-19-un daha çox yayılması ilə bağlı məhdudiyyətlər tətbiq olunub. Məlumatda qeyd olunur ki, sərginin keçirildiyi ərazidə insanların birbaşa təmasını azaltmaq məqsədilə kütləvi tədbirlər, o cümlədən təqdimatlar və konsertlər müvəqqəti olaraq dayandırılıb. Bundan başqa, PCR testi üzrə məntəqələrin sayı artırılıb və xidməti personalın hər 72 saatda bir testin yeni nəticəsini təqdim etməsi tələb olunur.

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Səhiyyə Nazirliyi bildirib ki, sentyabrdan bəri ölkədə, o cümlədən Dubay Əmirliyində COVİD-19-a yoluxma halları artır. BƏƏ hökuməti qarşıdan gələn Yeni il şənliklərinin də keçirilməsi ilə bağlı məhdudiyyətlər tətbiq etməyə hazırlaşır.

Qeyd edək ki, "Ekspo Dubay – 2020" sərgisinə indiyədək 7 milyondan artıq ziyarətçi gəlib.

"Düşüncələri birləşdirək, daha yaxşı gələcək quraq" (Connecting Minds, Creating the Future) mövzusunda "Ekspo Dubay – 2020" oktyabrın 1-dən fəaliyyətə başlayıb. Ötən il açılması nəzərdə tutulan, lakin pandemiya səbəbindən bu ilə ertələnən sərgidə 190 ölkə təmsil olunur. Sərgi 2022-ci il martın 31-nə qədər davam edəcək. Ərazi baxımından "Dubay Ekspo" bu günə qədər təşkil olunan ən böyük sərgidir. 400 hektardan çox ərazisi olan sərgi tematik olaraq 3 hissəyə bölünür: davamlılıq, mobillik və imkan.

Azərbaycan sərgidə Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Gələcəyin toxumları" mövzusu ilə çıxış edir. Üçmərtəbəli, ağac və onun budaqları formasını xatırladan pavilyonun konsepsiyası təsdiq edir ki, yalnız insan kapitalının inkişafı ilə dayanıqlı gələcəyə nail olmaq mümkündür. Pavilyonun səhnəsində konsertlər və müxtəlif mədəni proqramlar təşkil edilir.

## Riman hipotezi

### Alimlər "Minilliyin yeddi problemindən biri"ni həll etdiklərini bildirirlər

Kembricdəki Kley adına Riyaziyyat İnstitutu 2020-ci ilin may ayında dünya riyaziyyatçılarının bir əsrdən artıq müddətdə həll etməyə çalışdığı Riman hipotezini "Minilliyin yeddi problemindən biri" elan edib. İnstitut dünya alimlərinə müraciət edərək bu problemin həlli üçün 1 milyon dollar mükafat ayırıb.




Bu günlərdə Venesueladan dörd alim – Rodolfo A-Nyeves Rivas, Pedro Fernandes Navarrete, Maksimliana Bandres Dias və Zollner Kastellano Pabin birgə məlumat yayaraq Riman hipotezini həll etdiklərini və hazırda Venesuela Fizika, Riyaziyyat və Təbiət Elmləri Akademiyasının rəyini gözlədiklərini bildiriblər.

Məlumatda bildirilir ki, dörd riyaziyyatçı 2015-ci ildən bu hipotezin həlli üzərində çalışırlar. Akademiyanın müsbət rəyindən sonra venesuelalı alimlərin həlli beynəlxalq elmi cəmiyyətin ekspertlərinə təqdim ediləcək.

**Cavid**

## Avropada pandemiya qayğıları sərt addımları zəruri edir

Fransa və Almaniya hökumətləri koronavirusun "omikron" ştammının yayılmasının qarşısını almaq məqsədilə səyahət qaydalarında dəyişiklik ediblər. Dəyişikliyə əsasən, Böyük Britaniyadan gələnlər üçün tədbirlər sərtləşdirilib.



Şənbə günündən etibarən Böyük Britaniyadan Fransa və Almaniyaya yalnız vacib səyahətləri etmək mümkün olacaq. Ölkəyə gələn şəxslərdən səyahətdən 24 saat əvvəl edilən mənfi PCR testi tələb ediləcək. Sərnişinlərdən də 48 saat özünü təcrid etmələri tələb olunacaq. Ölkəyə daxil olduqdan 2 gün sonra ikinci COVİD testi verib, ancaq neqativ nəticə təqdim edə bilməyən sərnişinlər üçün bu müddət bir həftəyə qədər artır.

İtaliyada isə COVİD-19 pandemiyası ilə əlaqədar qüvvədə olan xüsusi karantin rejiminin müddəti daha 3 ay davam edəcək. Hökumət son həftələrdə COVİD-19 infeksiyasına gündəlik yoluxma hallarının artdığını nəzərə alaraq xüsusi karantin rejiminin müddəti 2022-ci il martın 31-dək uzadılması barədə qərar qəbul edib.

Səhiyyə naziri Roberto Speranza bildirib ki, Avropa İttifaqına (Aİ) üzv dövlətlərdən İtaliyaya səyahət edənlər vaksinasiya sertifikatı ilə yanaşı, COVİD-19-a qarşı testdən keçməli olacaqlar. Qitə ölkələrindən gələn və peyvənd olunmayanlar İtaliyada 5 gün karantində qalacaq. Aİ-yə üzv olmayan ölkələrdən gələnlər üçün isə 10 günlük karantin tələbi qoyulacaq.

İtaliyada pandemiya ilə bağlı xüsusi karantin rejimi ilk dəfə 2020-ci il yanvarın 31-də tətbiq edilib.

## Heydər Əliyev Mərkəzində "Nəğmə dolu ürək"

Dekabrın 29-da Heydər Əliyev Mərkəzində "Nəğmə dolu ürək" adlı qala-konsert olacaq. Konsert Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellasının müşayiəti, Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə keçəcək.

Qala-konsertdə solistlər – Xalq artistləri Azər Zeynalov (vokal), Fərhad Bədəlbəyli (fortepiano), Murad Adıgözəlzadə (fortepiano), Murad Hüseynov (fortepiano), Yeganə Axundova (fortepiano), Əməkdar artist Ramil Qasımov (vokal) çıxış edəcəklər.

Tanınmış musiqiçilərin ifalarında Elza İbrahimova, Fikrət Əmirov, Qara Qarayev, Niyazi, Oqtay Zülfüqarov, Sergey Raxmaninov, Sevil Əliyeva, Tofiq Quliyev və Üzeyir Hacıbəylinin əsərləri səslənəcək.

## Argentinada Nizaminin 880 illiyi münasibətilə konsert

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyi Argentinada da qeyd edilib. Bu ölkədəki səfirliyimizin təşəbbüsü, La Plata Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycanşünaslıq kafedrasının təşkilati dəstəyi ilə Buenos-Ayres şəhərində, tarixi "Teatro del Globe"də konsert keçirilib.



Tədbirin rəsmi hissəsində çıxış edən səfir Rəşad Aslanov xalqımızın bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi böyük ədəbi şəxsiyyətlərdən olan Nizami Gəncəvinin ölməz əsərləri ilə dünya şöhrəti qazandığını bildirib. Səfir şairin 880 illiyi şərəfinə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edildiyini diqqətə çatdırıb.

Konsert proqramının birinci hissəsində xanəndə Nurlan Namazov, tarzən, Əməkdar artisti Sahib Paşazadə və kamança ifaçısı Oqtay Şərifovun ifasında Nizami Gəncəvinin qəzəlləri, xalq və bəstəkar mahnılarımız təqdim olunub. İkinci hissədə isə tarzən S.Paşazadə pianoda Sevinc Kərimovanın müşayiəti ilə Azərbaycan və dünya bəstəkarlarının, o cümlədən məşhur Argentina bəstəkarı Astor Piazzollanın əsərlərini ifa edib. Sənətçilərimizin çıxışı alqışlarla qarşılanıb.

## Qırğızıstanlı kinorejissor Ankarada anılıb

Qırğızıstan kino sənətinin ən məşhur simalarından biri, rejissor, aktyor, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Bolot Şamşiyev (1941-2019) anadan olmasının 80-ci ildönümündə Ankarada anıldı.




Dekabrın 21-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Qırğızıstanın Türkiyədəki Səfirliyi və Yerli Düşüncə Dərnəyinin birgə əməkdaşlığı ilə Bolot Şamşiyevin həyat və yaradıcılığını əks etdirən sərginin açılışı keçirildi. Tədbirdə TÜRKSOY Baş katibinin müavini Bilal Çakıcı, Qırğızıstanın Türkiyədəki səfiri Kubaniçbek Ömuraliyev, Türkiyənin Moldova və Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç, Türkiyə və Qırğızıstan kino sənətinin nümayəndələri iştirak edirdi.

Sərginin açılışından sonra Bolot Şamşiyev haqqında sənədli film nümayiş etdirildi.

Tədbirdə çıxış edən Bilal Çakıcı bildirdi ki, Qırğızıstanın ən böyük rejissorlarından olan Bolot Şamşiyev Ankarada üç gün davam edəcək tədbirlərlə anılacaq: "80-90-cı illərdə qazax və qırğız ədəbiyyatının unudulmaz əsərlərini ssenariləşdirən və bu vasitə ilə iki xalq arasında qardaşlıq bağlarını möhkəmləndirən, dövlətlərarası yaxınlaşmaya töhfə verən Bolot Şamşiyev dövrün ən çox baxılan filmlərini çəkib. Təəssüf ki, qırğız xalqının qəlbində böyük yer tutan, hörmətlə anılan Bolot Şamşiyevi iki il əvvəl itirdik. Amma inanırıq ki, rejissor öz filmləri ilə qırğız və qazax xalqlarının yaddaşında əbədi yaşayacaq".

Səfir K.Ömüraliyev böyük kino xadiminin həyat və yaradıcılığından bəhs etdi. Bildirdi ki, kinorejissor Bolot Şamşiyev filmləri ilə qırğız xalqını dünyaya tanıdıb.

Çıxışlardan sonra iştirakçılara B.Şamşiyevin "İssık-kul gölünün gəlincikləri" filmi nümayiş etdirildi.

**Mehparə Sultanova**
**Ankara**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2770
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.